RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 26 (8619) CÜMƏ, 5 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azad edilmiş torpaqların minalardan təmizlənməsi birinci dərəcəli vəzifədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Siz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Azad edilmiş torpaqların minalardan təmizlənməsi işi birinci dərəcəli vəzifədir. Bu işlər elə aparılmalıdır ki, işlər başa çatandan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin.

Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. Mən insanların bu adımlarını bir tərəfdən başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir, həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıb. Eyni zamanda postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun.

Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə mina sahələrinin xəritələri yoxdur. Ona görə bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər.

Azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır.

Ardı 2-ci səh.

## İlham Əliyev yeni inkişaf hədəflərini müəyyən etdi



Azərbaycanın milli sosial-iqtisadi inkişaf xəttinin başlıca istiqamətləri ölkə iqtisadiyyatının yüksəlişi, əhalinin rifahının daha da yaxşılaşdırılmasıdır.

Əsası hələ ötən əsrin 90-cı illərində Heydər Əliyev tərəfindən müəyyən edilmiş bu prinsiplər sürətlə həyata keçirilib, dövrün tələblərinə uyğun olaraq yenilənib, ən əsası isə, qarşıya qoyulan hədəflərə inamla çatıb. Nəticə etibarilə həyatın bütün sahələrində, o cümlədən sosial-iqtisadi sferada köklü institusional dəyişikliklər, cəmiyyətin daha yüksək inkişaf pilləsinə yüksəlməsi baş verib.

### Ümdə vəzifə uğurların davamlı olmasıdır

Azərbaycanın dünyada enerji daşıyıcılarının etibarlı ixracatçısına və regionun ən mühüm tranzit mərkəzinə çevrilməsi, karbohidrogen ehtiyatlarının hasilatı və Avropa bazarlarına çatdırılması məqsədilə iri layihələrin işə salınması, nəqliyyat dəhlizlərinin yaradılması respulikamızın iqtisadi sferada qarşıda duran məqsədlərə doğru daha sürətlə irəliləməsinə yol açıb. Məhz bu amillər XXI əsrin əvvəllərindən etibarən ölkədə aparılan genişmiqyaslı islahatların daha da dərinləşdirilməsinə, cəmiyyətin yüksək sosial-iqtisadi inkişafına şərait yaratdı. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında” Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamında da qeyd olunur ki, bu dövrdə ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmişdir: “Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi üç dəfədən çox böyümüş, güclü sosial-iqtisadi infrastruktur yaradılmış, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli azalmışdır. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı ortagəlirli dövlətlər qrupunda möhkəmlənmişdir”.

Qarşıda dayanan ən ümdə vəzifələrdən, xalqımızın ən xoş arzularından biri əldə edilmiş bütün uğurların davamlı olması, cəmiyyətin bütün istiqamətlərində tərəqqinin artması, inkişafın keyfiyyətcə yeni mərhələyə yüksəldilməsidir.

Ardı 4-cü səh.

## A.T.Həsənovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Altay Tofik oğlu Həsənov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

## V.Ə.Süleymanovun Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Əhəd oğlu Süleymanov Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

## “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və dövlət qurumları Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi təşkil edilmiş müvafiq ərazilərdə fəaliyyətlərini Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazidəki xüsusi nümayəndəsi ilə əlaqələndirilmiş qaydada həyata keçirirlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

## R.T.Hacıyevin Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəhman Tofiq oğlu Hacıyev Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

## Qarabağda «yaşıl enerji»

### Bu hesaba 10 ildən sonra Azərbaycanda elektrik enerjisinin 30 faizini bərpaolunan enerji təşkil edəcək

Bütün dünyada elektrik enerjisi istehsalının dominant mənbəyi ənənəvi enerji mənbələridir. Bununla belə bir çox yerlərdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı artmaqda davam edir. Ölkəmizdə də enerjinin bu növünün istehsalına diqqət getdikcə artır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin dekabr ayında Azərbaycandakı külək elektrik stansiyalarında (KES) 7,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Noyabr ayı ilə müqayisədə bu göstərici 1,4 milyon kilovat-saat çoxdur. Ölkədəki günəş elektrik stansiyalarında (GES) isə dekabrda 1,8 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

Prezident İlham Əliyev 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasını hədəf kimi müəyyənləşdirib. Dövlət başçısının imzaladığı sərəncamlar nəticəsində Azərbaycanda energetikanın digər sahələrində olduğu kimi, bərpaolunan enerji mənbələrindən istifadə sahəsində də əlverişli investisiya mühiti yaradılıb, özəl sərmayələrin cəlb edilməsi və irimiqyaslı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Ardı 6-cı səh.

## İlham Əliyev Azərbaycanı yüksək texnologiyalar əsasında inkişaf edən ölkəyə çevirir

Azərbaycan Prezidenti İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədrini və nümayəndə heyətini videoformatda qəbul edərkən ölkə iqtisadiyyatının XXI əsrin üçüncü onilliyində yüksək texnologiyalar əsasında inkişaf edəcəyini bir daha təsdiq etdi. İqtisadiyyatın yüksək texnologiyalar əsasında inkişafını vacib sayan və hamıdan müasir tələblərlə ayaqlaşmağı tələb edən dövlət başçısı islahatların yeni mərhələsini növbəti dəfə önə çəkdi.

Azərbaycan böyük Zəfərdən sonra quruculuq işlərinə start vermiş və bu zaman yüksək texnologiyalara keçidi elan etmişdir. Azərbaycan Prezidenti aparıcı dost ölkələri yüksək texnologiyalar əsasında dirçəldiləcək Qarabağda əməkdaşlığa dəvət etmişdir.

Qafqazın iki dövləti arasındakı fərqlərə incəliklərinədək bələd olan “Maire Tecnimont Group”un nümayəndə heyətinin başçısı Fabrizio Di Amato Azərbaycan Prezidentinə belə müraciət etdi: “2020-ci ildə Dağlıq Qarabağdakı gərgin dövrü geridə qoymağınız münasibətilə Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycana çox yaxınıq və həmin mühüm vaxt bütün italyanların diqqəti də burada idi”.

Fabrizio Di Amato Azərbaycanda şirkətin artıq 200 nəfərə yaxın heyətinin çalışdığını, işçi qüvvəsinin 72 faizini azərbaycanlılar təşkil etdiyini bildirdi. Yerli universitet tələbələri, ümumiyyətlə, gənclərlə əməkdaşlığa üstünlük verdiklərini, sənaye zəncirinin yerli məzmunu, yeni təchizat zəncirində daha çox Azərbaycan şirkətləri ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırdı.

Prezident İlham Əliyev Fabrizio Di Amatoya Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrikinə görə təşəkkürünü bildirdi və dedi ki, biz ölkəmiz üçün çox çətinliklər yaradan bu əsas məsələni həll etdikdən sonra daha da sürətlə inkişaf edəcəyik: “İndi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək.

Ardı 4-cü səh.




## Prezident qətiyyətinin və siyasi iradəsinin məntiqi nəticəsi

### Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti regionda çoxşaxəli əməkdaşlıq üçün yeni imkanlar açacaq

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbə regionda yeni geosiyasi reallıq yaratdı.

Ermənistanın işğalçılıq siyasətinə son qoymaq üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörənliyi, düşünülmüş diplomatiyası sayəsində istər ön, istərsə də arxa cəbhədə böyük uğurlar qazandıq. Bununla da düşmən üzərində şanlı qələbəmiz təmin edildi.

Vətən müharibəsinin gedişində bir daha sübut edildi ki, Azərbaycanın razılığı olmadan Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz. Tarixi torpaqlarımızın düşməndən təmizlənməsi Qarabağdan keçən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olması deməkdir. Bu gün respublikamız hərb meydanında olduğu kimi, diplomatik sahədə də üstün mövqedədir.

Ardı 6-cı səh.



# Azad edilmiş torpaqların minalardan təmizlənməsi birinci dərəcəli vəzifədir

*Əvvəli 1-ci səh.*

Ona görə biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın.

Agentliyin qarşısında böyük vəzifələr durur. İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik dövlət agentliyidir. Əlbəttə ki, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün, əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Yeni texnikanın alınması, əlbəttə ki, növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə, baxın, dünyanın aparıcı istehsalçıları olan şirkətlərin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər.

Mən ardıcıllıqla bağlı öz fikirlərimi dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, birinci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra ziyanın qiymətləndirilməsi, ondan sonra artıq bərpa işləri aparılacaqdır.

Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olmuşdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir. Siz bu sahədə təcrübəli beynəlxalq mütəxəssisləri cəlb edərək işçilər üçün həm ölkə daxilində təlim kursları keçirməlisiniz, həm də xaricdə qısamüddətli kurslar təşkil olunmalıdır ki, bizim mütəxəssislər, istehkamçılar özləri-özlərini qoruya bilsinlər, eyni zamanda, burada ən qabaqcıl təcrübə tətbiq edilsin.

Peyk görüntülərindən səmərəli istifadə etməliyik. Peyk görüntüləri bizə əlavə imkanlar yaradır, həm müharibə dövründə, həm də müharibədən sonra təbii ki, bərpa işlərində. Biz ermənilər tərəfindən qırılmış meşələrin həcmini məhz peyklərdən müəyyən edə bilmişik və indi yerlərdə bunu təsdiq edirik. Meşələrimizin 54 min hektarı Ermənistan rəhbərliyi tərəfindən qırılıb, talan edilib və satılıb. Peyk görüntüləri, eyni zamanda, minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik.

Mən müharibə başa çatandan sonra Müdafiə Nazirliyinə göstəriş vermişdim ki, əlavə istehkamçı taborlar yaradılsın və onlar yaradılıbdır. Azad edilmiş torpaqlarda minalardan təmizləmə işi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilir və bugünə qədər işin təqribən 80-90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Amma sizin rəhbərlik edəcəyiniz agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Əlbəttə, Müdafiə Nazirliyinin istehkamçıları bundan sonra da çalışacaqlar. Çünki işin həcmi kifayət qədər böyükdür. Ancaq Minatəmizləmə Agentliyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin. Çünki əvvəlki agentliyin texniki təchizatı çox aşağı səviyyədə idi, say tərkibi aşağı səviyyədə idi. Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir. Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması - əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında. Ağacların bir hissəsini yük maşınlarına doldurub Ermənistana satmağa aparıb. Qalan ağacları, sadəcə olaraq, qırıb ki, bizə qalmasın. Özləri tikmədikləri, - azərbaycanlıların yaşadıqları evləri ki, onları zəbt etmişdilər, - yandırıblar, dam örtüklərini, pəncərə çərçivələrini, sanitar qovşaqlarını çıxarıb aparıblar. Bu biabırçı kadrlar xarici mediada da kifayət qədər işıqlandırılmışdır. Görün, onlar nələri özləri ilə aparırlar?! Sanitar qovşaqlarını. Mənfur xuntanın özünə ofis yaratdığı Şuşa şəhərinin keçmiş raykom binasında kondisionerləri, radiatorları bu qaçaqaçda çıxarıblar. Çünki biz bilirdik ki, onlar oradan necə qaçırdılar. Bəlkə də qaçışda rekord nəticələr göstərmişlər. Amma bu qaçaqaçda da bellərinə yəqin ki, radiator, kondisioner bağlayıb Ermənistana qaçırdılar. Yəni, bizim bütün infrastrukturumuz, binalar yerlə yeksan edilib. Ona görə hər kəs başa düşməlidir ki, bu işin miqyası nə qədər böyükdür və Azərbaycan bu bərpa işlərinə təkbaşına start verib. Biz heç kimdən yardım gözləmədən buna start vermişik və bütün işlər plan üzrə gedir. Ona görə siz Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq etməlisiniz, onlarla görüləcək işlərin cədvəlini birgə tutmalısınız, hansı sahələr daha əvvəl təmizlənməlidir, yəni, burada da metodologiya var, dünya metodologiyası var, peyk təsvirləri var.

Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, mən hesab edirəm ki, biz özəl şirkətləri bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir. Hesab edirəm ki, onları cəlb etmək işimizi yüngülləşdirmək üçün önəmli addım olacaqdır. Hesab edirəm ki, bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq mən hesab edirəm ki, özəl şirkətlər yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və beləliklə, biz bu işləri daha qısa müddət ərzində görə bilərik. Əlbəttə ki, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir. Eyni zamanda, Minatəmizləmə Agentliyi onlara sertifikatlar da verməlidir, onlar akkreditasiyadan keçməlidir. Həmçinin xarici şirkətlərlə birgə müəssisələr də yaradıla bilər. Ona görə siz agentliyin rəhbəri kimi bu işlərə də fikir verin.

Biz Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq. Yəni, bu, Azərbaycan standartları olmalıdır, əlbəttə ki, dünya praktikasına da baxmaq lazımdır. Hesab edirəm ki, bizim azad edilmiş ərazilərdə olan bu minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir. Təmizləmə işləri də, əlbəttə ki, ardıcıllıqla aparılmalıdır. Burada da prioritetlər düzgün müəyyən edilməlidir. Siz bu prioritetləri də Operativ Qərargahla mütləq razılaşdırın. Çünki bu prioritetlər bizim bərpa işlərimizlə də uzlaşmalıdır. İlk növbədə, misal üçün, infrastruktur obyektləri - indi yollar çəkilir, mütləq o sahədə minatəmizləmə işləri aparılmalıdır, hava limanı tikilir, orada da indi bu işlər aparılır, elektrik xətləri çəkilir, yol boyunca bu işlər görülməlidir.

Yaşayış məntəqələrinə gəldikdə, biz, ilk növbədə, şəhərləri bərpa etməliyik. Ona görə bütün şəhərlərin əraziləri birinci növbədə minalardan təmizlənməlidir. Bununla paralel olaraq yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi “ağıllı kənd” konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya, demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. “Ağıllı kənd” birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır. Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib. Azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıb. Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim. Deyə bilərəm ki, payızlıq əkin də aparılmışdır. Baxın, müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başlamışıq. Mənə gündəlik məlumat verilir, 7 min hektarda artıq payız əkini aparılıb. Yəni, bu, yenə də bizim gücümüzü göstərir. Onu göstərir ki, biz bir dəqiqə də, bir gün də gözləmək istəmirik. Biz bu torpaqlara qayıtmaq istəyirik və keçmiş köçkünlər, əlbəttə ki, bu arzularla 30 il yaşayıblar. Onların hisslərini başa düşmək olar. Amma, eyni zamanda, onların və onlarla birlikdə olanların təhlükəsizliyi birinci dərəcəli məsələdir. Bu yaxınlarda üç nəfər minaya düşüb, bir nəfər həlak olub. Yəni, o işin təşəbbüskarı var. Təşəbbüsü irəli sürən adam özü də xəsarət alıb yanında olanlar da. Ona görə bu, çox ciddi məsuliyyətdir. Ona görə indi yazlıq əkin üçün sahələrin müəyyənləşdirilməsi prosesi də gedir, torpaqlar müəyyən edilib və o əkin sahələrinə gedən yollar da mütləq prioritetlər sırasında olmalıdır.

İnkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik. Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir. Biz güclü bir qurum yaratmalıyıq, ilk növbədə, onun başlıca vəzifəsi əraziləri minalardan təmizləmək olmalıdır. Bizim Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər. Beynəlxalq təşkilatlar tərəfindən də bizim bu agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni, bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər.

Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri **Vüqar Süleymanov** dedi:

- Çox sağ olun, möhtərəm cənab Prezident. Sürətlə inkişaf edən Azərbaycanımız bu gün zəfər çalmış ölkədir. Bu, sözsüz ki, Sizin həm Prezident, həm də Ali Baş Komandan kimi gərgin əməyinizin parlaq nəticəsidir. Bu gün ölkəmiz əsası Ulu Öndər tərəfindən qoyulan inkişaf strategiyasını uğurla davam etdirərək yeni hədəflərə doğru irəliləyir. Qarabağa böyük qayıdış bu hədəflərdən biridir. Bu hədəflərə nail olmaq üçün, Siz qeyd etdiyiniz kimi, mina təhlükələrindən qurtulmaq birinci dərəcəli vəzifələrə aiddir.

Hörmətli cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, agentlik bütün imkanlarını səfərbər edəcək və qarşımıza qoyulmuş vəzifələrə, hədəflərə nail olacaqdır.

Azad edilmiş ərazilərdə minatəmizləmə işləri tapşırığınıza əsasən lazımi səviyyədə, beynəlxalq standartlara uyğun və keyfiyyətlə yerinə yetiriləcəkdir. Mən qürur duyuram ki, belə bir məsuliyyətli işin təşkilində iştirak edəcəyəm və bu etimadınıza görə Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib





Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqlar və müəyyənləşdirdiyi strateji istiqamətlərə uyğun həyata keçirilən işlər haqqında iclas iştirakçılarına məlumat verib. O qeyd edib ki, milli əhəmiyyət kəsb edən bərpa və yenidənqurma işlərinin dinamik və keyfiyyətli icra edilməsi, habelə bu proseslərdə ən qabaqcıl standart və texnologiyaların səmərəli tətbiqi ölkəmizin qarşısında duran əsas vəzifələrdən biridir.

Samir Nuriyev dövlət başçısının tapşırıqları əsasında müvafiq qurumlar tərəfindən həyata keçirilən işlərin əlaqələndirilmiş və ardıcıllığa uyğun olaraq mərhələli şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

İclasda qərargah tərəfindən hazırlanmış Strateji Fəaliyyət Planı və Tədbirlər Planı əsasında nazirlik və dövlət təşkilatları tərəfindən vaxt qrafikinə uyğun olaraq görülməli işlər nəzərdən keçirilib.

17 istiqamət üzrə işçi qruplarının fəaliyyət göstərdiyi mərkəzdə hazırda 55 qurum və 150-yə yaxın əməkdaş təmsil olunur. Mərkəzin fəaliyyətinə daimi əsasda təhkim edilmiş şəxslərlə bərabər konkret mövzu və tapşırıqların icrası məqsədilə ekspertlər də cəlb edilib.

İclasda qərargahın nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin, işğaldan azad edilmiş ərazilərə qayıdış, ətraf mühitin qorunması və enerji təminatı, şəhid ailələri və Vətən müharibəsi iştirakçılarının sosial təminatı, şəhərsalma, nəqliyyat-infrastruktur və digər istiqamətlərdə fəaliyyət göstərən işçi qruplarının məruzələri dinlənilib, qaldırılan məsələlərlə bağlı ətraflı müzakirələr aparılıb və zəruri tapşırıqlar verilib.

# SOCAR-ın Müşahidə Şurasının ilk iclası



Prezident İlham Əliyevin “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında” 2021-ci il 23 yanvar tarixli fərmanına əsasən yaradılmış Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının ilk iclası keçirilib.

Azərbaycan İnvestisiya Holdinqindən AZƏRTAC-a bildirilib ki, Müşahidə Şurasının sədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun sədrliyi ilə videoformatda keçirilən iclasda şura üzvləri, SOCAR-ın rəhbər şəxsləri iştirak ediblər.

İlk olaraq Dövlət Neft Şirkətinin Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. M.Cabbarov vurğulayıb ki, hazırda Dövlət Neft Şirkəti yeni inkişaf dövrünə qədəm qoyur. Dövlət başçısının fərmanı ilə yaradılmış Müşahidə Şurası qabaqcıl təcrübə və müasir idarəetmə tələbləri çərçivəsində SOCAR-ın fəaliyyətində səmərəliliyi artırmaq, onun idarə edilməsini müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək istiqamətində fəaliyyət göstərəcək. Müşahidə Şurası Dövlət Neft Şirkətinin idarə heyəti ilə əməkdaşlıq müstəvisində çalışacaq.

İclasda Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə həyata keçiriləcək tədbirlər, SOCAR-ın korporativ idarəetmə sisteminin prinsipləri, Müşahidə Şurasının fəaliyyətinin təşkili, şirkətin idarə olunmasında Azərbaycan İnvestisiya Holdinqinin rolu və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

# Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421,422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405; 2020, № 4, maddə 423, № 6, maddə 708) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.9.7-1-ci və 1.9.10-1-ci yarımbəndlər əlavə edilsin:

"1.9.7-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;";

"1.9.10-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;".

2. 2.1.2-ci yarımbəndə aşağıdakı məzmunda 6-1-ci abzas əlavə edilsin:

"6-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;".

3. 2.1.3-cü yarımbəndə aşağıdakı məzmunda 1-1-ci abzas əlavə edilsin:

"1-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli 1170 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1248; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 dekabr tarixli 1210 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.5-1-ci yarımbənd əlavə edilsin:

"6.5-1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müəyyən etdiyi giriş-çıxışın xüsusi rejiminin tətbiqinin təmin edilməsi.".

2. Aşağıdakı məzmunda 12-1-ci hissə əlavə edilsin:

"12-1. Bu Fərmanın 4-cü, 5-ci, 7-ci və 8-ci hissələri Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin təyin edildiyi ərazilərə şamil edilmir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2021-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi (bundan sonra - xüsusi nümayəndəlik) işğaldan azad olunmuş ərazilərdə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri yerinə yetirən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının struktur bölməsidir.

1.2. Xüsusi nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Əsasnaməni və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xüsusi nümayəndəlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqan və qurumları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xüsusi nümayəndəlik fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi inzibati ərazi vahidində və ya onun hissələrində (bundan sonra - müvafiq ərazi) həyata keçirir və onun səlahiyyətləri həmin ərazi ilə məhdudlaşır. Xüsusi nümayəndəlik müvafiq ərazidə yerləşir.

**2. Xüsusi nümayəndəliyin fəaliyyət istiqamətləri**

2.1. Xüsusi nümayəndəliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq ərazinin müəyyən edilmiş hədəflərə uyğun olaraq inkişafını təmin etmək;

2.1.2. müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin fəaliyyətini əlaqələndirmək;

2.1.3. müvafiq ərazidə mülkiyyətin mühafizəsini, dövlət əmlakından səmərəli istifadəni, habelə sahibkarlıq, şəhərsalma, tikinti və digər sahələrdə fəaliyyətin həyata keçirilməsini təşkil etmək;

2.1.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Xüsusi nümayəndəliyin vəzifələri və hüquqları**

3.1. Xüsusi nümayəndəliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə nail olunması məqsədilə dövlət orqanlarının (qurumlarının), onların yerli bölmələrinin, digər təşkilatların müvafiq ərazidə əlaqələndirilmiş fəaliyyətini təmin etmək;

3.1.2. müvafiq ərazi üzrə əhalinin yaşayış yerlərinə qayıtması və məskunlaşması üçün zəruri təhlükəsizlik, iqtisadi, sosial, kommunal və digər tədbirlər planları layihələrinin hazırlanmasında iştirak etmək və təsdiq olunmuş planların icrasına nəzarət etmək;

3.1.3. müvafiq ərazidə əhalinin rifahının yaxşılaşdırılmasına nail olunması üçün müvafiq dövlət proqramları layihələrinin hazırlanmasında və təsdiq edilmiş proqramların icrasına nəzarətdə iştirak etmək;

3.1.4. müvafiq ərazidə mülkiyyətin, o cümlədən dövlət əmlakının mühafizəsi istiqamətində tədbirlər görülməsini təşkil etmək və onların icrasına nəzarət etmək;

3.1.5. müvafiq ərazidə infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılmasının təşkilinə nəzarət etmək;

3.1.6. müvafiq ərazidə mülkiyyətə, o cümlədən dövlət əmlakına zərər vurulmasının qarşısının alınması, vurulmuş zərər ilə əlaqədar əvvəlki vəziyyətin bərpası, zərərin əvəzinin ödənilməsi və digər tədbirlər barədə dövlət orqanları (qurumları) qarşısında məsələ qaldırmaq;

3.1.7. müvafiq ərazi hüdudlarında dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların mülkiyyətə və ya istifadəyə, icarəyə verilməsinin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların səmərəli istifadəsi və mühafizəsi üçün zəruri tədbir görülməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları), bələdiyyə qarşısında məsələ qaldırmaq;

3.1.8. müvafiq ərazidə kənd təsərrüfatı üçün yararlı torpaqların və onların keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, heyvandarlıq məqsədləri üçün saxlanılan heyvanların uçotunun aparılması, saxlanılması, mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi işlərinə nəzarət etmək;

3.1.9. müvafiq ərazidə ayrı-ayrı əşyaların mülki dövriyyədən çıxarılması və ya onların mülki dövriyyəsinin məhdudlaşdırılması ilə bağlı məsələ qaldırmaq;

3.1.10. sahibkarlıq fəaliyyəti subyektlərinin müvafiq ərazidə həyata keçirdikləri və ya təqdim etdikləri biznes layihələrinin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq və müvafiq tədbirlər görmək;

3.1.11. müvafiq ərazidə şəhərsalma, memarlıq və tikinti sahələrində dövlət siyasətinin effektiv həyata keçirilməsində iştirak etmək, habelə yerli səviyyədə şəhərsalma nəzarətini təşkil etmək;

3.1.12. müvafiq ərazidə milli memarlıq ənənələrinin qorunub saxlanılmasına, tarixi və təbii landşaftın qorunmasına, inkişaf etdirilməsinə, memarlıq üslubuna riayət edilməsinin təmin olunmasına, landşaft və ya məkan görünüşündən səmərəli istifadə ilə bağlı tələblərin yerinə yetirilməsinə nəzarət etmək;

3.1.13. müvafiq ərazidə tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılmasına və mühafizəsinə nəzarət etmək;

3.1.14. müvafiq ərazidə tikinti layihələrinin, tikinti, tikinti-quraşdırma, bərpa, yenidənqurma, abadlaşdırma və digər bu kimi işlərin müvafiq ərazinin perspektiv inkişafı ilə bağlı hədəflərə uyğunluğunu yoxlamaq və müvafiq tədbirlər görmək;

3.1.15. müvafiq ərazidə ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi işlərini təşkil etmək;

3.1.16. müvafiq ərazidə təxirəsalınmaz tibbi yardımla təminedilmə və digər zəruri təxirəsalınmaz tibb xidmətlərinin göstərilməsi vəziyyətini qiymətləndirmək və bu barədə aidiyyəti üzrə məlumat vermək;

3.1.17. müvafiq ərazidə istehsalat və məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi işini təşkil etmək, icazəsiz tullantı yerlərinin ləğv edilməsi üçün tədbirlər görmək, tullantılarla davranma qaydaları barədə məlumatlandırılmanı təmin etmək;

3.1.18. müvafiq ərazidə nəqliyyat və yol infrastrukturunun inkişafı, mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

3.1.19. müvafiq ərazidə zəruri rabitə şəbəkəsinin qurulmasına, dövlət orqanları (qurumları) əməkdaşlarının xüsusi rabitə ilə təmin olunmasına nəzarət etmək;

3.1.20. müvafiq ərazi üzrə ictimai təhlükəsizliyin və ictimai qaydanın qorunmasının təmin edilməsinə, mühüm obyektlərin təhlükəsizliyinin təmini üçün tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;

3.1.21. müvafiq ərazidə hərəkət rejiminin tənzimlənməsi işini təşkil etmək, bu sahədə əlaqələndirməni həyata keçirmək;

3.1.22. zərurət olduqda, müvafiq əraziyə giriş-çıxışın xüsusi rejimini müəyyənləşdirmək və həmin rejimin tətbiqini müvafiq ərazinin komendantı vasitəsilə təmin etmək;

3.1.23. müvafiq ərazidə minatəmizləmə və minaların zərərsizləşdirilməsi işlərinin aparılmasına nəzarət etmək;

3.1.24. müvafiq ərazidə energetika qurğularının, o cümlədən hidrotexniki qurğuların vəziyyətinin ilkin qiymətləndirilməsinin aparılmasını, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasını və müvafiq mülki müdafiə tədbirlərinin yerinə yetirilməsini təşkil etmək;

3.1.25. Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi qərarların dövlət orqanları (qurumları) tərəfindən müvafiq ərazidə həyata keçirilməsi vəziyyətini qiymətləndirmək və bununla bağlı aidiyyəti üzrə məlumat vermək;

3.1.26. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin həvalə etdiyi digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün xüsusi nümayəndəliyin hüquqları aşağıdakılardır:

3.2.1. xüsusi nümayəndəliyə həvalə edilmiş vəzifələrin icrası ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) qarşısında məsələ qaldırmaq;

3.2.2. müvafiq ərazi ilə bağlı normativ hüquqi aktların, dövlət proqramlarının və digər bu kimi sənədlərin layihələrinə dair təkliflər vermək;

3.2.3. təhlillər aparmaq, təkliflər, tövsiyələr, rəylər, arayışlar, analitik və digər yönümlü materiallar hazırlamaq, onları aidiyyəti üzrə təqdim etmək;

3.2.4. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə yazılı və ya şifahi sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. müxtəlif görüşlər, iclaslar, müşavirələr və digər tədbirlər keçirmək;

3.2.6. qanunvericilikdə nəzərdə tutulan digər hüquqları həyata keçirmək.

**4. Xüsusi nümayəndəliyin fəaliyyətinin təşkili**

4.1. Xüsusi nümayəndəliyin strukturunu və ştat vahidlərinin sayını Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

4.2. Xüsusi nümayəndəliyə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin müvafiq ərazidə xüsusi nümayəndəsi (bundan sonra - xüsusi nümayəndə) rəhbərlik edir. Xüsusi nümayəndə xüsusi nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Xüsusi nümayəndənin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini ola bilər. Xüsusi nümayəndənin müavini xüsusi nümayəndənin ona həvalə etdiyi vəzifələri yerinə yetirir və buna görə şəxsən məsuliyyət daşıyır.

4.4. Xüsusi nümayəndə, onun müavini, xüsusi nümayəndəliyin əməkdaşları Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının əməkdaşlarıdır.

4.5. Xüsusi nümayəndəliyin əməkdaşlarının işə qəbulunu və işdən azad edilməsini, onlar barəsində həvəsləndirmə və intizam tədbirlərinin tətbiqini Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri həyata keçirir.

# Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçıları ilə növbəti görüş keçirilib






Fevralın 4-də Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçıları və qazilərimizlə növbəti görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuzun 44 gün müddətində əzəli və əbədi torpaqlarımızı düşmən işğalından azad etməsi, həmçinin "Dəmir yumruq" hərbi əməliyyatı ilə xalqımızın qəlbindəki 30 illik nisgilə birdəfəlik son qoyulması barədə söhbət açıb.

Sədr müavini bildirib ki, müharibə dövründə dövlət başçısının "Biz birlikdə güclüyük!" şüarını rəhbər tutan xalqımızın igid övladlarının ön cəbhədə, bütün Azərbaycan xalqının isə arxa cəbhədə səfərbər olması qürurvericidir. Qeyd olunub ki, Ermənistanın müharibə zamanı aldığı zərbələrin yaraları hələ uzun illər sağalmayacaq. Müharibə gənclərimizin vətənpərvərliyini, azərbaycançılıq məfkurəsinin hər kəsin qəlbində ən uca zirvədə qərar tutduğunu bir daha göstərdi. Qısa müddət ərzində aparılan bu sürətli müharibə həm də bütün dünyaya ölkəmizin gücünün nümayişi oldu.

Adil Əliyev qəhrəmanlarımızın döyüş meydanlarında göstərdiyi şücaətin tarixin yaddaşına həkk olunduğunu diqqətə çatdırıb, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib.

Görüşün sonunda Vətən müharibəsində xüsusi qəhrəmanlığı ilə seçilən iştirakçıların bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim olunub.

# Milli Məclis komitələrinin birgə iclasında ölkəmizdə koronavirus infeksiyası ilə bağlı mövcud vəziyyət müzakirə edilib

Fevralın 4-də Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə parlamentin Səhiyyə və İqtisadi siyasət, Sənaye və sahibkarlıq komitələrinin birgə iclasında "Koronavirus infeksiyası (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət, vaksinasiya və digər görülən tədbirlər" mövzusunda videokonfrans formatında dinləmə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, onlayn toplantını giriş sözü ilə açan Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov koronavirus infeksiyasının mövcudluğunun dünyada olduğu kimi, Azərbaycan cəmiyyətində də hər kəsi narahat etdiyini deyib. Bildirib ki, Milli Məclisin sədri Sahibə Qafarovanın təşəbbüsü ilə baş tutan bu tədbirin məqsədi ölkəmizdə pandemiya şəraitində ümumi vəziyyətin, həyata keçirilən mübarizə tədbirlərinin müzakirə olunmasıdır. Əhliman Əmiraslanov qeyd edib ki, COVID-19 infeksiyasının qarşısının alınması və təhlükəsiz idarə olunması Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın daim diqqətindədir. Ötən il Azərbaycanda bununla bağlı böyük işlər görülüb.

Komitə sədri məsələ ilə əlaqədar qanunvericilikdə müəyyən dəyişikliklərin edildiyini diqqətə çatdırıb. Hazırda koronavirusla bağlı vəziyyətin sabit olduğunu, sağalma hallarının yoluxmanı üstələdiyini bildirən komitə sədri vurğulayıb ki, heç bir halda arxayınlaşmaq və profilaktik müdafiə tədbirlərini zəiflətmək olmaz.



Onlayn iclasda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev çıxış edərək icbari tibbi sığortanın əhalinin sağlamlığının qorunmasında vacib element olduğunu diqqətə çatdırıb. O, 2020-ci ildə Azərbaycanda icbari tibbi sığortanın həyata keçirilməsinin gedişi ilə bağlı ətraflı məlumat verib. Qeyd edilib ki, ötən il 23 rayonda icbari tibbi sığorta tətbiq olunub, tibbi xidmətlər zərfində nəzərdə tutulan xidmətlərdən həmin rayonların əhalisinin təqribən 50 faizi istifadə edə bilib. Zaur Əliyev əhalinin göstərilən xidmətlərdən çox məmnun qaldığını da vurğulayıb.

Sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini Nigar Bayramova icbari tibbi sığorta haqqında qanunvericiliyə təklif edilməsi nəzərdə tutulan dəyişikliklərdən danışıb.

Onlayn dinləmədə çıxış edən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı qurumun pandemiya dövründə gördüyü işlər, xəstəliyin müəyyən olunması, müalicənin aparılması, infeksion nəzarət və izolyasiya, icra, koordinasiya və nəzarət qruplarının fəaliyyəti, vaksinasiya prosesi barədə ətraflı məlumat verib.

TƏBİB-in rəhbəri çıxışında bu sahədə maddi-texniki bazanın təkmilləşdirilməsi, sərhəd-buraxılış məntəqələrində prosesin idarə olunması, xəstələrə psixoloji dəstək xidmətləri, beynəlxalq əməkdaşlıq məsələlərindən geniş söhbət açıb. Bildirilib ki, pandemiya dövründə ölkəmizdə çarpayı fondu 2046 olan modul tipli 12 yeni xəstəxana, 570 çarpayı yerlik Yeni Klinika istifadəyə verilib. Ötən il ərzində tibb müəssisələri 4474 ədəd yeni cihaz və avadanlıqla təmin edilib. COVID-19-la mübarizə məqsədilə ÜST, UNICEF, AEBA, AİB kimi beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurulub, çoxsaylı birgə layihələr həyata keçirilib.

Dinləmədə çıxış edən Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, deputatlardan Vahid Əhmədov, Əli Məsimli, Məlahət İbrahimqızı, İlham Məmmədov, Mahir Abbaszadə, Məşhur Məmmədov, Sədaqət Vəliyeva, Kamilə Əliyeva, Məzahir Əfəndiyev, Elnur Allahverdiyev ölkəmizdə virusla mübarizə sahəsində görülən işləri yüksək qiymətləndirib, bu tədbirlərin infeksiyanın yayılmasının qarşısının alınmasında böyük rol oynadığını bildiriblər. Çıxışçılar dövlət rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Diqqətə çatdırılıb ki, yoluxma sayının azalması infeksiyanın tamamilə yox olması demək deyil və bu, insanları arxayınlaşdırmamalıdır.

Onlayn toplantıda deputatları maraqlandıran suallar cavablandırılıb.

Dinləmədə Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, deputatlardan Ziyad Səmədzadə, Rəşad Mahmudov, Ülvi Quliyev, Vüqar Bayramov, Rüfət Quliyev, İqbal Məmmədov, Anatoliy Rafailov, Soltan Məmmədov, Kəmaləddin Qafarov, Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin müdir əvəzi Teymur Musayev və müvafiq qurumların nümayəndələri iştirak ediblər.

# *Müdafiə Nazirliyi:* "Partlayış nəticəsində hərbi qulluqçumuz həlak olub"



Fevralın 4-də günorta saatlarında Ağdam rayonu ərazisində partlayış baş verib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Hadisə nəticəsində əsgər Zeynalov Qubad İslam oğlu həlak olub.

Digər iki hərbi qulluqçumuz Babayev Nemət Novruz oğlu və Məlikməmmədov Balaqardaş Mübariz oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Hazırda yaralılar həkim nəzarətindədir, həyatları üçün təhlükə yoxdur.

Hadisə ilə bağlı cinayət işi açılıb, araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçunun yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Birol AKGÜN: "İşğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafında Azərbaycana yardım göstərməyə hazırıq"

Fevralın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Maarif Fondunun sədri Birol Akgünlə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ceyhun Bayramov Azərbaycan ilə Türkiyə arasında zəngin, geniş və sıx dostluq münasibətlərini məmnunluqla qeyd edib.

Nazir ölkəmizin müstəqilliyinin ilk günlərindən üzləşdiyi ən böyük və ağrılı problem olan keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edib, qardaş Türkiyənin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyini hər zaman dəstəklədiyini, xüsusilə 44 günlük Vətən müharibəsi zamanı rəsmi Ankaranın bütün səviyyələrdə, o cümlədən Türkiyə xalqının nümayiş etdirdiyi həmrəyliyin və mənəvi dəstəyin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. O, Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən bu dövrdə Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin, "Bir millət, iki dövlət" konsepsiyasının sözdə deyil, əməldə olduğunun növbəti dəfə bariz şəkildə nümayiş etdirildiyini söyləyib. Azərbaycanın dövlət başçısı tərəfindən qeyd edildiyi kimi, tərəflər arasında bu sıx münasibətlərin arxasında məhz doğru siyasətin dayandığı vurğulanıb.

Səmimi qəbula görə nazir Ceyhun Bayramova təşəkkürünü bildirən Birol Akgün Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsinin bütün Türkiyə xalqını həyəcanlandırdığını qeyd edib, qələbə xəbərinin yüksək sevinclə qarşılandığını bildirib və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən bütün şəhidlərə Allahdan rəhmət diləyib. Akgün Türkiyə və Azərbaycan liderləri arasında dostluq münasibətlərinin ikitərəfli əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyini bildirib. Müharibədən sonrakı quruculuq və inkişaf dövrünə toxunan fond sədri bu xüsusda təhsil sahəsinin önəmini vurğulayıb, işğaldan azad edilmiş ərazilərdə təhsil sahəsinin inkişafı məsələsində ölkəmizə müvafiq yardımın göstərilməsinə hazır olduqlarını diqqətə çatdırıb.

Tərəflər ölkələrimiz arasında bütün istiqamətlər üzrə mövcud əməkdaşlığın bundan sonra daha da inkişaf etdirilməsinin vacibliyini bildiriblər.

# Mark ŞNAYER: "Azərbaycan etnik müxtəlifliyə və multikultural mühitinə görə nümunəvi ölkədir"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı fevralın 4-də ölkəmizdə səfərdə olan ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayerlə görüşüb.



Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri bu gün dinlər və sivilizasiyalar arasında dialoqun baş tutması üçün əsas şərtə çevrilən, mütərəqqi dünya tərəfindən başlıca demokratik dəyərlərdən biri kimi təbliğ olunan tolerantlıq və multikulturalizm Azərbaycan xalqının əsrlərboyu formalaşan, eyni zamanda, çoxları üçün örnək göstərilən xarakterik xüsusiyyəti olduğunu deyib. Bu dəyərlərin, eləcə də Azərbaycanla bağlı həqiqətlərin dünyaya çatdırılmasında yəhudi icmalarının özünəməxsus yeri olduğunu qeyd edən sədr vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində yəhudi vətəndaşlarımız da iştirak edərək digər dinlərin nümayəndələri ilə birgə həmrəylik göstəriblər.

Öz növbəsində ölkə rəhbərliyi tərəfindən milli və etnik icmalara, o cümlədən Azərbaycanda əsrlərlə yaşamış yəhudi icmalarına xüsusi diqqət və qayğının göstərildiyini söyləyən Şnayer etnik müxtəlifliyə, multikultural mühitə görə Azərbaycanın onlar üçün nümunə olduğunu deyib. Qeyd edilib ki, Azərbaycan təkcə müsəlman aləmində deyil, həmçinin dünya miqyasında yüz illər ərzində tolerantlıq və dözümlülüyün hökm sürdüyü nümunəvi ölkədir. "Dövlətinizin yürütdüyü siyasətin nəticəsidir ki, burada yaşayan yəhudi icması və digər icmalar Azərbaycan xalqının tam və bərabərhüquqlu üzvü olmaqla yanaşı, güclü və inkişaf etmiş Azərbaycanın qurulmasında iştirak edir. ABŞ-ın NBC kanalında hər həftə ravvin kimi çıxış etdiyini deyən Şnayer bugünkü çıxışında Azərbaycana səfərindən, buradakı görüşlərindən, ölkəmizdə hökm sürən tolerantlıq və birgəyaşayış mühitindən danışacağını da diqqətə çatdırıb.

Sonda qonağa DQİDK-nın nəşr etdirdiyi, Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinə dair kitablar təqdim olunub.

# Leyla Əliyeva Azərbaycan əsgəri haqqında



Parlaq qələbə ilə başa çatan Vətən müharibəsi doğma torpaqlarımızın düşmən tapdağı altından azad olunmasıyla yanaşı, ölkədə milli ruhun oyanışına, qürurlu, mətin bir xalqın, sanki yeni azərbaycanlıların doğuluşuna səbəb oldu. Bir gözümüz hüdudsuz qələbə sevincindən doldusa da, o biri gözümüz haqq və ədalət savaşında canından keçmiş əziz şəhidlərimiz üçün yaş axıtdı və hamımızın qəlbində əbədi məşəltək alovlanacaq qürur və ağrı abidəsi - igid Azərbaycan əsgəri abidəsi ucaldı. AZƏRTAC tanınmış Azərbaycan şairi Leyla Əliyevanın Azərbaycan əsgərinin ölümsüzlüyü haqqında qələmə aldığı şeirlərini Salam Sarvanın tərcüməsində təqdim edir.

## ƏSGƏR

Əsgər... Ədalətə tapınan insan.
Qəlbi Qələbənin eşqiylə yanar.
Əsgər... Ürəyində vətən vəfası,
Köksündə bir sükut çığırtısı var.

Güllə qabağında qırpılmaz gözü,
Günəşin önünü dağ kəsə bilməz!
Əsgər gözəl bilir: sevginin üzü
Həqiqət nurundan heç vədə dönməz.

Qorxusuz gözləri yırtar gecəni,
Alnına qırmızı kölgə salar dan...
Zülmətdən qorxmağı anlamaq olar,
Dərd odur, dərd odur Gündən qorxasan.

Eşidər Allahın pıçıltısını,
İlahi nəfəsdən gərilər sinə.
O, yalan içində batan dünyanın
Yükünü qaldırar çiyinlərinə.

Əsgər... Öz yurduna ilahi bir pay:
Doğulub müqəddəs gündə, saatda.
Zalımın bu nankor, bu kor kölgəsi
Əriyər qəlbinin işığı altda.

Gərər sinəsini şərə, şeytana,
Elin hər daşının həyanı olar.
Taleyi yazılmış açıq alnını
Söykər sərhəd boyu uzanan yola.

Sancılar bayraqtək yüksəkliklərə,
Günəşə qoşulub yanan çıraqdı.
Yeriyər, yer titrər ayağı altda,
And yeri vicdandı, and yeri haqdı.

Onun vətənindən müqəddəsi yox,
Onun dağlarından yoxdu ucası.
Düşür sümüyünə torpağın indi
Mətin addımların melodiyası.

Hər insan Allahın səsidir axı:
Nə qorxar qanından, nə can əsirgər.
Gözünün rəngində torpaq qarası,
Kürəyi vətənin hasarı əsgər.

* * *

Bombalar səs-səsə veriblər yenə,
Vətənin bağrından qan axır indi.
Düşmən gülləsinə tuş olan əsgər,
Yaran qəlbin qədər dərin, dərindi.

Ağlayır bir ata itirmiş uşaq,
Ağlayır göylərdə Günəş də bu gün.
Ellikcə savaşa hazırıq, Vətən,
O dərdli uşağın göz yaşı üçün.

Bir gün qayıdacaq yerinə hər şey,
Bir gün sevinəcək bu yurd, bu ocaq...
Ancaq o atanın isti qucağı
Bir də o uşağa açılmayacaq.

Elimiz qələbə sorağı gözlər:
Gözləri yoldadı, qulağı səsdə.
Analar əlini qoyub and içir
Oğul itkisinin ağrısı üstə.

Gün gələr, o zəfər xəbəri gələr,
Öpər igidlərin başdaşlarını.
Ata nisgiliylə qovrulan uşaq
Dəfn elər gözündə göz yaşlarını.

# İlham Əliyev Azərbaycanı yüksək texnologiyalar əsasında inkişaf edən ölkəyə çevirir

Əvvəli 1-ci səh.

Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq".

İlham Əliyev "Maire Tecnimont Group"un ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirdi, bu şirkətin Azərbaycanda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunduğunu vurğuladı və bu əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətli olduğunu bildirdi: "İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik".

Dövlət başçısı qəbulda italyan şirkətlərinin ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqlarını, artıq bərpa və tikinti işləri ilə bağlı bir neçə italyan şirkətinin dəvət olunduğunu, Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılmasına start verildiyini də diqqətə çatdırdı.

"Maire Tecnimont Group"un baş icraçı direktoru Pierroberto Folgiero təmsil etdiyi şirkətin ölkəmizə yeni texnologiyalar sahəsində töhfə vermək niyyətində olduğunu, "yaşıl kimya" adlanan sahəni inkişaf etdirməkdə, enerji istehsalı sahəsini genişləndirməkdə maraqlı olduqlarını bildirdi.

Göründüyü kimi, Azərbaycan Prezidentinin bütünlükdə yüksək texnologiyalara keçidi elan etməsi italyanlarda sonsuz maraq doğurmuşdur. Pierroberto Folgiero: "İcazə verin, bildirim ki, yeni texnologiyaları inkişaf etdirmək və sizin çevikliyinizdən faydalanaraq sahibkarlıq imkanlarından istifadə etməkdən çox şad olardıq. Bu keyfiyyətlər İtaliyanın iş adamlarının da yanaşmasının əsasında dayanır və müəyyən dərəcədə "yaşıl kimya" sahəsində qabaqcıl mövqeyi şərtləndirir".

Prezident İlham Əliyev italyan biznesmenlərin gələcək tərəfdaşlıqla bağlı ideya və fikirlərini tam dəstəklədi, "yaşıl kimya"nın texnoloji inkişaf baxımından yenilik kimi Azərbaycanda yüksək texnologiyaların tətbiqi ilə uzlaşdığını təsdiqlədi. Ətraf mühitin qorunması ilə bağlı tədbirlər davam edəcək, buna görə də "yaşıl enerji" konsepsiyası, ölkəmizi irəliyə aparan yol kimi dəstəklənəcək: "Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda biz orada "ağıllı şəhər", hətta "ağıllı kənd" adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# İlham Əliyev yeni inkişaf hədəflərini müəyyən etdi

Əvvəli 1-ci səh.

Bunu zəruri edən səbəblərdən birincisi Azərbaycanın zamanın çağırışlarına vaxtında reaksiya verməsidir. Məlum olduğu kimi, qloballaşma şəraitində bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Proqnozlara görə, yaxın və nisbətən uzaq gələcəkdə dünya iqtisadiyyatında artım məhz bu amilin təsiri nəticəsində baş verəcək. Bu onu göstərir ki, müsbət iqtisadi göstəricilər daha çox ölkənin innovasiya sahəsində nailiyyətlərindən, qabaqcıl texniki standartların və metodların tətbiqindən asılı olacaq.

Bununla yanaşı, daha keyfiyyətli inkişaf mərhələsinə keçilməsini zəruri edən səbəblərdən biri torpaqlarımızın işğaldan azad edilməsidir. Bəli, torpaqlarımızın azad edilməsi onların mövcud iqtisadi potensialından tam istifadə olunmasına geniş imkanlar yaradıb. Eyni zamanda Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyası sınağından da inamla çıxır. Əvvəlki illərdə aparılmış islahatlar hesabına milli iqtisadiyyat bu dövrdə xarici təsirlərə qarşı dözümlü oldu. Beləliklə, həm torpaqlarımızın işğaldan azad edilməsi, həm də pandemiyanın inamla dəf edilməsi yeni sistemli və davamlı iqtisadi islahatları zəruri edir.

## Növbəti 10 ilin milli prioritetləri

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də bu məqsədə xidmət edir. Sərəncamda qeyd olunduğu kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir: "Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir".

Beləliklə, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş milli prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu milli prioritetlər eyni zamanda Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Nazirlər Kabineti milli prioritetlərə uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsini hazırlayacaq.

Əvvəlki illərdə həyata keçirilmiş sosial-iqtisadi quruculuq və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm əsaslar yaradır. Bu baxımdan indiyədək qazanılmış nailiyyətlər imkan verir ki, Azərbaycan öz qarşısına daha yüksək məqsədlər qoysun və bundan irəli gələn vəzifələri müəyyənləşdirsin. Prezident İlham Əliyevin təsdiq etdiyi milli prioritetlər də ölkəmizin yeni sosial-iqtisadi inkişaf mərhələsinə yüksəldilməsi ilə bağlıdır.

Prezident İlham Əliyevin təsdiq etdiyi milli prioritetlərin həyata keçirilməsi Azərbaycanın zamanın tələblərinə və qlobal çağırışlara uyğun yüksəlişini təmin edəcək. Bu istiqamətlərdə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi respublikamızın dünyada və regionda çəkisini daha da artıracaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Qarabağda «yaşıl enerji»

## Bu hesaba 10 ildən sonra Azərbaycanda elektrik enerjisinin 30 faizini bərpaolunan enerji təşkil edəcək



*Əvvəli 1-ci səh.*

Qarşıdakı 10 il ərzində təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulur. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşdırılması planlaşdırılır.

Prezidentin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış komissiya fəaliyyətini davam etdirir və artıq beş iclasını keçirib. Məlum olduğu kimi, 2019-cu il dekabrın 29-da Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisi ilə bağlı müqavilələr imzalanıb. Layihənin həyata keçirilməsinə ümumilikdə 300 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu, tikiləcək stansiyanın il ərzində 1 milyard kilovat-saata yaxın elektrik enerjisi istehsal edəcəyi nəzərdə tutulur. Bu layihənin icrası nəticəsində il ərzində 200 milyon kubmetr qaza qənaət ediləcək, habelə ətraf mühitə atılan tullantıların həcmi ildə 400 min tonadək azaldılacaq. Layihənin reallaşdırılması həmçinin müasir istehsal və xidmət sahələrinin yaranmasına, yeni iş yerlərinin açılmasına töhfə verəcək. 2020-ci ilin yanvar ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə günəş elektrik stansiyasının tikintisi ilə bağlı icra müqaviləsi imzalanıb. Hazırda şirkətlə müzakirələr davam edir və mart ayında digər müqavilələrin imzalanması gözlənilir.

Dövlət başçısının tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpaolunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır.

Bu barədə İqtisadiyyat və Energetika nazirlikləri birgə məlumat da yayıblar. Məlumatda bildirilir ki, Azərbaycanın elektroenergetika, o cümlədən bərpaolunan enerji mənbələri sahəsinə xarici və yerli investorların marağı artır. "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Prezidentin 29 may 2019-cu il tarixli sərəncamı ilə müəyyən edilmiş vəzifələrin mühüm istiqamətlərindən biri elektroenergetika sahəsinə özəl investisiyaların cəlb edilməsi üçün zəruri tədbirlərin görülməsidir. Energetika Nazirliyi tərəfindən ilkin layihəsi hazırlanmış 2050-ci ilədək dövrü əhatə edən energetika sektorunun uzunmüddətli inkişaf strategiyası məhz özəl investisiyalara istiqamətlənən inkişaf modelinə əsaslanır. Azərbaycan bərpaolunan enerji mənbələri ilə zəngin resurslara malik ölkələrdəndir. Odur ki, günəş və külək enerjisi potensialından səmərəli istifadəni təmin etmək qarşıya vəzifə kimi qoyulub.

Beynəlxalq tələblərə cavab verən qanunvericilik bazasının mövcudluğu investorları maraqlandıran başlıca şərtlərdəndir. Qeyd olunan sərəncama əsasən, "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun layihəsi hazırlanıb və aidiyyəti qurumlarla razılaşdırılaraq baxılmaq üçün təqdim edilib. Qanunun qəbulundan sonra Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə enerji mənbələrindən istifadə sahəsində özəl investisiya hesabına kiçikhəcmli layihələrin həyata keçirilməsinə başlanacaq.

Energetika Nazirliyində bu mövzuda keçirilən görüşdə Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, BMT-nin İnkişaf Proqramı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Alman Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq maliyyə institutları və qurumlarının nümayəndələri iştirak ediblər. Tədbirdə işğaldan azad edilmiş ərazilərin bərpaolunan enerji potensialı barədə təqdimat göstərilib. "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı çağırışlar beynəlxalq qurumlar tərəfindən müsbət qiymətləndirilir və bu sahədə əməkdaşlığa maraq ifadə edilir.

Beləliklə, Azərbaycanın işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonalarına çevriləcək, bu rayonların davamlı inkişafı üçün yeni imkanlar açılacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Prezident qətiyyətinin və siyasi iradəsinin məntiqi nəticəsi

## Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti regionda çoxşaxəli əməkdaşlıq üçün yeni imkanlar açacaq

*Əvvəli 1-ci səh.*

### Strateji tərəfdaşlığın əyani təzahürü

Ancaq hərbi əməliyyatların başa çatması faktı özü-özlüyündə hələ bölgədə və regionda sülh və əmin-amanlığın tam bərqərar olacağına zəmanət ola bilməz. Ona görə də keçmiş münaqişə zonasında bundan sonrakı proseslərə nəzarət edə biləcək xüsusi qurumun formalaşması zərurəti yaranmışdı. Bütün bunlar ötən il noyabr ayının 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmış üçtərəfli bəyanatda da öz əksini tapdı.

Həmin sənədə əsasən, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyini artırmaq məqsədilə monitorinq mərkəzinin yaradılması nəzərdə tutulurdu. Bu məqsədlə Türkiyə və Rusiya arasında birgə mərkəzin yaradılmasına dair razılıq əldə edilmişdi. Məhz həmin razılaşmanın nəticəsi kimi yanvarın 30-da Ağdam rayonunun ərazisində yaradılmış Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başladı.

Prezident İlham Əliyev hələ ötən il noyabrın 10-da xalqa müraciətində bildirmişdi ki, qardaş Türkiyə Respublikası münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq. Belə də oldu. Dövlət başçısı ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşü zamanı bildirdi ki, Türkiyə-Rusiya Monitorinq Mərkəzi atəşkəs rejiminə nəzarət edəcək. Bu, regional əməkdaşlığın çox yaxşı təzahürüdür, həmçinin Türkiyə ilə Rusiya arasında çox məqbul əməkdaşlığın rəmzidir.

Beləliklə, işğaldan azad olunmuş Ağdamda inşa edilən mərkəz İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin reallaşmasının, Azərbaycan-Türkiyə qardaşlığının və strateji tərəfdaşlığının real mənzərəsini bir daha təcəssüm etdirdi. Yəni birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması Azərbaycanın siyasi iradəsinin növbəti təzahürü və dövlət başçısının düşünülmüş, qətiyyətli, prinsipial siyasətinin məntiqi nəticəsi hesab edilməlidir.

### Effektiv və etibarlı nəzarət

Birgə Monitorinq Mərkəzi münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyini artırmaq məqsədinə xidmət edir. Mərkəzin əsas məqsədi üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir. Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub. Burada hər iki tərəfin birgə istifadəsi üçün ümumi monitorinq mərkəzi, brifinq zalı, 100 nəfərlik yeməkxana, tibb məntəqəsi, camaşırxana, bərbər, dərzi, mağaza da var.




Ərazidə su stansiyası, transformator, generator, avtomobil dayanacağı, açıq havada iki idman şəhərciyi, eləcə də iki örtülü idman zalı, ərzaq və soyuducu anbarlar yerləşir.

Bütün əraziyə perimetr boyu hasar çəkilib, 4 ədəd müşahidə nəzarət qülləsi quraşdırılıb, sutkalıq mühafizə təşkil olunub. Şəxsi heyətin istirahətinin təşkili üçün zəruri avadanlıqla tam təmin edilmiş otaqlar da hazırlanıb. Mərkəzin mühafizəsi Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən həyata keçirilir.

Burada nəzarət həm texniki, həm də ən yüksək texnoloji vasitələrlə həyata keçiriləcək. Əsas məqsəd ondan ibarətdir ki, hər hansı bir dövlət mövcud vəziyyətlə bağlı ayrı-ayrılıqda deyil, ortaq məxrəcə gələrək ciddi məruzə hazırlayacaq. Beləliklə də, gələcəkdə baş verəcək neqativ proseslərin qarşısı alınacaq, pozitiv proseslər daha da inkişaf etdiriləcək.

Bu gün ən yüksək səviyyəyə çatmış Azərbaycan-Türkiyə tərəfdaşlığı Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və davamlı inkişaf üçün böyük önəm kəsb edir. Eyni zamanda prosesdə Rusiya və Türkiyənin birgə iştirakı da olduqca pozitiv amildir və regionda daha geniş əməkdaşlıq planlarının gerçəkləşdirilməsi üçün yeni imkanlar açır.

Birgə Monitorinq Mərkəzinin yaradılması və fəaliyyətə başlaması Prezident İlham Əliyevin irəli sürdüyü 3+3 (Rusiya, Türkiyə və İran + Azərbaycan, Ermənistan və Gürcüstan) əməkdaşlıq formatının reallaşması, kommunikasiyaların açılması baxımından da növbəti uğurlu addımdır. Mərkəz tərəflər arasında əldə olunmuş razılaşmaların şərtlərinin yerinə yetirilməsində, mümkün insidentlərin qarşısının alınmasında, araşdırılmasında effektiv və etibarlı nəzarəti təmin edəcək.

### Yeni geosiyasi reallıq

Bir sözlə, birgə Monitorinq Mərkəzinin yaradılması qərarı tərəflərin hərbi əməliyyatların dayandırılması rejiminə riayət etməsinə etibarlı nəzarət etməyə imkan verəcək və uzun müddət davam edən münaqişənin tam həlli üçün möhkəm zəmin yaradacaq.

Mərkəzin fəaliyyətə başlaması region üçün sülh və əməkdaşlıq perspektivi baxımından mühüm əhəmiyyətə malikdir. Çünki ATƏT-in Minsk qrupunun 30 ildə həll edə bilmədiyi münaqişəni Azərbaycan 44 gün ərzində həll etdi. Bu həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsidir.

Yeni fəaliyyətə başlayan mərkəzdən gözləntilər çoxdur. Siyasətçilər hesab edirlər ki, mərkəz regionda çoxşaxəli əməkdaşlıq üçün yeni imkanlar açacaq. Belə ki, hazırda bölgədə yeni geosiyasi reallıq yaranıb və 44 günlük müharibədən sonra regionda geosiyasi vəziyyət xeyli dəyişib. Bu kontekstdə Türkiyənin təmsilçilərinin azad olunmuş ərazilərdə xidmətə başlamasını yeni geosiyasi reallığın uğurlu nəticəsi kimi də qiymətləndirmək olar.

Bu reallığı Prezident İlham Əliyevin praqmatik siyasəti, Azərbaycan-Türkiyə tərəfdaşlığı yaradıb. Gündən-günə güclənən bu tərəfdaşlıq regionda yalnız təhlükəsizliyin deyil, sülhün də təminatına zəmin yaradır. İki ölkənin müharibədən sonrakı dövrdə birgə addımlaması ümumilikdə Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı üçün böyük önəm kəsb edir.

Beləliklə də, Ağdamda Türkiyə-Rusiya birgə Monitorinq Mərkəzinin yaradılması ölkəmizin növbəti qələbəsi kimi qiymətləndirilməlidir. Çünki məhz İlham Əliyevin prinsipial siyasətinin nəticəsində regionda yeni geosiyasi konfiqurasiya formalaşır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Yaxın günlərdə 65 yaşdan yuxarı vətəndaşların peyvəndlənməsi başlayacaq

Pandemiya Yer üzünü təhdid etməkdədir. Ümumdünya Səhiyyə Təşkilatının gündəlik hesabatında deyilir ki, dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 403 mindən çox olub.

Yoluxanların ümumi sayı 103 milyonu, bu xəstəlikdən həyatını itirənlərin sayı isə 2 milyonu ötüb. Hazırda dünyanın bir çox ölkəsində koronavirusdan qorunmağın ən effektiv yolu olan vaksinasiya işi aparılır. Azərbaycanda da yanvarın 18-dən COVID-19-a qarşı vaksinasiya prosesinə səhiyyə işçilərinin peyvəndlənməsi ilə start verilib.

COVAX ölkələr arasında koronavirus vaksininin paylaşdırılması ilə bağlı ilkin proqnozlarını açıqlayıb. COVAX-ın təqdim edəcəyi "Astra Zeneca" və Oksford Universitetinin vaksinləri fevral ayından gec olmayaraq paylanmağa başlayacaq. Ən çox vaksin dozasını Hindistan əldə edəcək. Bu ölkəyə 97 milyondan çox dozanın ayrılması proqnozlaşdırılır. Banqladeşə 12,8 milyona yaxın, Braziliyaya 10,6 milyondan çox vaksin veriləcək.

COVAX Azərbaycana 506 min doza vaksini verməyi proqnozlaşdırıb. Nazirlər Kabinetindən verilən məlumata əsasən, peyvəndləmə ilə bağlı birinci mərhələnin növbəti addımı kimi 65 yaşdan yuxarı vətəndaşların peyvəndlənməsi başlayacaq. Bunun üçün xüsusi qeydiyyat mexanizmi yaradılıb və fevralın 5-dən etibarən bu kateqoriyadan olan vətəndaşlar qeydiyyatdan keçiriləcək. Bundan sonra hər bir vətəndaşa SMS məlumat göndərilərək peyvəndlənməyə dəvət olunacaq və fevralın 8-dən başlayaraq bu yaş qrupuna aid olan vətəndaşlara peyvənd vurulacaq. Bildirilib ki, ölkədə bu kateqoriyaya aid olan təqribən 700 min vətəndaş var.

Onu da vurğulayaq ki, hələ virus üzə çıxandan bəri dövlətimiz tərəfindən ona qarşı görülən effektiv tədbirlər nəticəsində hazırda ölkəmizdə COVID-19 infeksiyasına yoluxmada müsbət dinamika müşahidə olunur. Bu isə sərt karantin rejiminin mərhələli şəkildə yumşaldılmasına rəvac verir.

Artıq ötən ayın 18-dən sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsində məhdudiyyətlərin bir qismi yumşaldılıb. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, sözügedən tarixdən 5 şəhər və 12 rayonda yaşayış yerini və olduğu yeri SMS icazə, "icaze.e-gov.az" portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv olunub.

Yanvarın 25-dən muzey və sərgi zallarının, ticarət obyektlərinin (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olmaqla), bərbərxanaların, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərə, şəhərlərarası və rayonlararası hərəkətə icazə verilib. Fevralın 1-dən həm ölkə ərazisində ictimai iaşə obyektlərində, həm də restoran, kafe və çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər bərpa olunub.

Fevralın 1-dən Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyəti mərhələli şəkildə bərpa edilib. İri şəhərlərdə tədris həftədə 3 dəfə olmaqla, digər rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa olunub.

Fevralın 8-dən isə Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla ölkənin digər şəhər və rayonlarında ümumi təhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla həyata keçiriləcək. Qeyd edək ki, bu, fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən təhsil müəssisələrində həyata keçiriləcək.

Layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki məsafəni gözləməyə imkan verməyən ümumi təhsil müəssisələrində isə tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla keçiriləcək.

Uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçiriləcək.

15 fevral tarixindən isə Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə, xüsusi məktəblərdə (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla bərpa ediləcək.

Ali və orta ixtisas təhsili və peşə təhsili müəssisələrində praktiki məşğələlər tələb olunan ixtisaslar üzrə (müvafiq laboratoriya və xüsusi təchiz edilmiş auditoriyalarda) və təhsilalanların fiziki iştirakını tələb edən fənlərin və mövzuların əvvəlcədən müəyyən edilmiş cədvəllər üzrə tədrisi (tibb, yaradıcılıq, mühəndislik və s.) ənənəvi formada bərpa olunacaq. X-XI siniflərdə isə əyani tədrisin nə zaman bərpa olunması ilə bağlı vaxt təyin edilməyib.

Onu da qeyd edək ki, virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti aprelin 1-dək uzadılıb. Xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskadan istifadə məcburidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ötən il səhiyyə işçilərinə ümumilikdə 142 milyon 51 min manatdan çox vəsait ödənilib

Ötən il səhiyyə işçilərinin fəaliyyətlərinin qiymətləndirilməsi və ölçülməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası təsdiq edilib. Yeni Qaydanın tətbiqi nəticəsində 23 şəhər və rayonun səhiyyə işçilərinə aylıq sabit və xidmətə görə həvəsləndirici əlavələr verilib. Nəticədə ötən il səhiyyə işçilərinə ümumilikdə 142 milyon 51 min manatdan çox vəsait ödənilib. Bu rəqəm 2019-cu illə müqayisədə 43.52 faiz çoxdur.

AZƏRTAC xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev icbari tibbi sığortanın 2020-ci il üzrə tətbiqi ilə bağlı fevralın 4-də keçirilmiş mətbuat konfransında deyib.

"Bu il icbari tibbi sığortanın tətbiqinə daha 36 inzibati ərazi qoşulub. Hazırda icbari tibbi sığortanın tətbiqi ölkənin 59 şəhər və rayonunu əhatə edir. 2021-ci ilin aprelindən etibarən 7 rayon və şəhərdə rəsmi qeydiyyatda olanlar xidmətlər zərfindən istifadə edəcəklər. Beləliklə də 2021-ci ildə icbari tibbi sığortanın tətbiqi bütün ölkə ərazisində təmin olunacaq. Xüsusilə Bakı və Sumqayıt şəhərlərinin, eləcə də Abşeron rayonunun sakinləri bu il aprelin 1-dən icbari tibbi sığortadan istifadə edəcəklər. Həmin ərazi vahidlərində icbari tibbi sığortanın tətbiq olunması məqsədilə ilkin səhiyyə xidmətinin gücləndirilməsi, tibb müəssisələrinin optimallaşdırılması istiqamətində tədbirlər davam etdirilir" deyə Z.Əliyev diqqətə çatdırıb.

* * *

Nazirlər Kabinetinin Qərarına əsasən, 2020-ci il yanvarın 1-dən icbari tibbi sığortanın ölkənin 23 şəhər və rayonunda tətbiqinə başlanılıb. Dövlətimiz ilkin mərhələdə bütün xərcləri öz üzərinə götürüb və həmin ərazilərdə sığorta haqqı toplanılmayıb. Bu dövlətimiz tərəfindən aparılan sosialyönümlü islahatın və əhaliyə göstərilən qayğının bariz nümunəsidir. Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən dövlət büdcəsindən icbari tibbi sığortanın ötən ilin yanvarından tətbiq edildiyi inzibati ərazi vahidləri üzrə 90 manat sığorta haqqı ayrılıb. Nəticədə 23 şəhər və rayonda 2 milyon 256 min nəfər sakinin xidmətlər zərfindən dövlət büdcəsinin vəsaiti hesabına istifadəsi təmin edilib. Sığortaolunanların xidmətlər zərfi çərçivəsində dövlət büdcəsinin vəsaiti hesabına tibbi xidmətlərlə təmin edilməsi əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükünü xeyli azaldıb.

AZƏRTAC xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev icbari tibbi sığortanın 2020-ci il üzrə tətbiqi ilə bağlı fevralın 4-də keçirilmiş mətbuat konfransında deyib.

Z.Əliyev həmçinin bildirib: "23 şəhər və rayonda fəaliyyət göstərən dövlət tibb müəssisələrinin agentliyə təqdim etdikləri ilkin hesabatlara əsasən, 2020-ci il ərzində 1 milyon 147 min 834 nəfər həmin müəssisələrə ümumilikdə 4 milyon 170 min 432 dəfə müraciət edib. Ən çox müraciət olunan şəhər və rayonlara gəlincə, bunlar Mingəçevir şəhəri (449 837), Xaçmaz (348 856), Ağdaş (328 756), Zaqatala (291 814) və Yevlax (275 779) rayonları olub. Həmin müraciətlər üzrə 8 milyon 339 min 508 tibbi xidmət göstərilib. Beləliklə, həmin ərazilərdə rəsmi qeydiyyatda olan əhalinin 50 faizi tibb müəssisələrinə müraciət edərək xidmətlərdən yararlana bilib.

Ən çox tibbi xidmət göstərən tibb müəssisələri Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası (1 156 586), Xaçmaz (615 557), Ağdaş (512 834), Yevlax (512 451) və Şəki (510 891) rayon mərkəzi xəstəxanalarıdır. Müraciətlərin çoxu tibbi müayinə, habelə qan dövranı sistemi, tənəffüs sistemi, endokrin sistemi, maddələr mübadiləsi və qidalanma pozuntuları, sidik-cinsiyyət sistemi və həzm sistemi xəstəlikləri ilə bağlı olub".

* * *

Ötən il icbari tibbi sığortanın tətbiq olunduğu 23 inzibati ərazi üzrə 35 min 287 cərrahi əməliyyat həyata keçirilib. Bu da 2019-cu illə müqayisədə 7 faiz artım deməkdir.

AZƏRTAC xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev icbari tibbi sığortanın 2020-ci il üzrə tətbiqi ilə bağlı fevralın 4-də keçirilmiş mətbuat konfransında deyib.

Z.Əliyev bildirib ki, ötən il icbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə ürək və damar cərrahiyyəsi üzrə 1252 əməliyyat həyata keçirilib. O bildirib ki, uşaqlar üzərində icra olunan ürək və damar cərrahiyyəsi üzrə əməliyyatların sayı 68 olub.

Onun sözlərinə görə, ölkədə koronavirus pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində planlı əməliyyatların keçirilməsi müəyyən dövrədək təxirə salınıb. Bundan başqa, icbari tibbi sığortanın tətbiq olunduğu 23 inzibati ərazidə fəaliyyət göstərən 7 tibb müəssisəsi koronavirus pandemiyası ilə əlaqədar olaraq karantinə bağlanıb.

* * *

İcbari tibbi sığortanın tətbiq olunduğu 23 şəhər və rayonda tibb müəssisələrinin dərman və tibb vasitələri ilə təchizatının yaxşılaşdırılması məqsədilə tədbirlər görülüb. Dərman vasitələrinin çeşid sayı 126-dan 334-ə, tibbi sərflərin çeşid sayı isə 116-dan 296-ya çatdırılıb.

AZƏRTAC xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev icbari tibbi sığortanın 2020-ci il üzrə tətbiqi ilə bağlı fevralın 4-də keçirilmiş mətbuat konfransında deyib.

Onun sözlərinə görə, 2021-ci il üçün xəstəxanaların ehtiyaclarına uyğun əsas dərman vasitələrinin siyahısının genişləndirilməsi də nəzərdə tutulur.

# Baş Prokurorluq tikinti şirkəti ilə bağlı yayılan əsassız məlumatlara münasibət bildirib

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində "Kat Holding" MMC-nin təsisçisi Elçin Ələkbərovun Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq edilən cinayət işi üzrə əsassız həbs olunması nəticəsində tikinti işlərinin tamamlanmaması səbəbindən bir çox vətəndaşların mənzillə təmin edilməməsi ilə bağlı yayılmış həqiqətə uyğun olmayan informasiyaları təkzib edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bir müddət əvvəl Elçin Ələkbərovun qanunsuz əməlləri nəticəsində 2018-ci ilin dekabrında təhvil verilməli olan binanın hazırkı vaxtadək istismara verilməməsi səbəbindən vətəndaşların şikayət etmələri ilə bağlı informasiyaların ictimailəşdirilməsinə baxmayaraq, təəssüf ki, eyni media subyektləri tərəfindən istintaqın normal gedişinə təsir göstərmək, eləcə də işin obyektiv hallarını "pərdələmək" məqsədilə qərəzli olaraq Elçin Ələkbərovun məhz həbs edilməsinin tikinti işlərinin tamamlanmamasına səbəb olması barədə məlumatlar yayılıb.

Baş Prokurorluq bir daha bildirir ki, məhz mənzillərlə təmin edilməyən bir çox vətəndaşın, eləcə də Litva Respublikasının vətəndaşı Pocius Povilasın 2020-ci il 10 iyun tarixli, həmçinin binaların tikintisini sifariş edən "MİDA" MMC-nin 2020-ci il 12 iyun tarixli müraciətləri əsasında aparılan araşdırma nəticəsində Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ötən il iyulun 16-da cinayət işi başlanıb.

İstintaqın gedişində toplanmış sübutlara əsasən Elçin Ələkbərov Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Zərərçəkmiş şəxslərə vurulmuş maddi zərərin ödənilməsi və pozulmuş hüquqların bərpası istiqamətində Baş Prokurorluq tərəfindən tədbirlər davam etdirilir.

"Bir daha KİV nümayəndələrini və sosial şəbəkə istifadəçilərini informasiyaları dərc edərkən diqqətli və qərəzsiz olmağa çağırırıq. Vətəndaşların hüquqlarının bərpa olunması istiqamətində tədbirlər davam etdirilməklə istintaqın nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək" deyə Baş Prokurorluğun məlumatında bildirilib.

## Lütfi Zadə – 100

# Nəzəriyyələri ilə dünya elmini zənginləşdirən azərbaycanlı alim

*Süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin adı dünya elminin nəhəngləri ilə bir sırada çəkilir. Onun elmi kəşfləri, ideyaları bəşəriyyətin inkişafına, insanların rifahına, rahatlığına yönəldilmişdir. Alimin elmi nəzəriyyələrindən yüzlərlə ölkənin tanınmış şirkətləri istifadə edərək sıçrayışlı sürətlə inkişaf etmiş, böyük iqtisadi səmərəyə nail olmuşlar.*

**“Lütfi Zadə fundamental nəzəriyyələri ilə elm tarixində ciddi dəyişikliklərə yol açmış görkəmli şəxsiyyətlərdəndir. Alimin ardıcıl tədqiqatlarının nəticəsi olaraq irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsi müxtəlif elm sahələrinin müasir mərhələdə inkişafında dərin iz qoymuş və yeni yanaşma üsulları meydana gətirmişdir. Bu nəzəriyyə üstün intellektual texnologiyalara güclü təsir göstərmiş, müasir idarəetmə və informasiya-kommunikasiya sistemlərinin əsaslarının formalaşdırılmasında mühüm rol oynamışdır”.**

**İlham ƏLİYEV**

Lütfi Zadə vətənini, xalqını çox sevirdi. “Heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm, əksinə, bununla qürur duymuşam” deməklə millətinə nə qədər bağlı olduğunu nümayiş etdirmişdir.

2011-ci ilin fevralında Prezident İlham Əliyev sərancamı ilə görkəmli alim texnologiyaların inkişafına verdiyi töhfələrə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif edilib. Yubileyləri bütün dünyada yüksək səviyyədə bir çox tədbirlərlə qeyd edilib.

Bakı dünya şöhrətli alim üçün ən xoş, kövrək xatirələrin ünvanı idi. Lütfi Ə.Zadə - Lütfəli Rəhim oğlu Ələsgərzadə 1921-ci il fevralın 4-də Bakıda Asya küçəsində yerləşən 79 saylı evdə, jurnalist-psixoloq ailəsində dünyaya göz açmışdı. Atası Rəhim Ələsgərzadə Bakı Universitetinin “Şərqşünaslıq” fakültəsində təhsil almışdır. Sonralar o həm iş adamı, həm də eksport-import mətbuat nümayəndəsi kimi tanınmışdır. Anası Feyqa xanım isə 1918-ci ildə Tiflis qızlar gimnaziyasını bitirmiş, sonra Azərbaycan Universitetinin Tibb fakültəsində uşaq həkimi ixtisasına yiyələnmişdir. Lütfi ilk təhsilinə Bakıdakı 16 saylı məktəbdə başladı. Ömrünün dörd ili həmin təhsil ocağı ilə bağlı oldu.

Ötən əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və iqtisadi vəziyyət gərgin olduğuna görə onların ailəsi 1931-ci ildə İrana köçmək məcburiyyətində qalmışdı. O, burada ingilis təmayüllü məktəbdə oxumuş, sonra Tehran Universitetinin Mühəndis-elektrik fakültəsinə daxil olmuşdur. 1942-ci ildə həmin universitetdə təhsilini uğurla bitirmiş və iki il sonra ABŞ-a getmişdir. 1946-cı ildə Bostonda Massaçusets Texnologiya İnstitutunda təhsilini başa vurmuş, 1949-cu ildə Nyu Yorkdakı Kolumbiya Universitetində doktorluq elmi dərəcəsini almışdır.

1957-ci ildə Kaliforniya Elmi Mərkəzinin sədri Norbert Viner məktub yazaraq onu Kaliforniyadakı Berkli Universitetinə işləməyə dəvət edir. 1959-cu ildə Lütfi Zadə ailəsi ilə birlikdə Berkli şəhərinə köçür. Lütfi Zadə Berkli Universitetində Elektrik mühəndisliyi fakültəsində çalışır. 1963-cü ildən həmin fakültəyə başçılıq edir və bundan sonra fakültənin adını dəyişdirərək “Elekrtik mühəndisliyi və kompüter elmləri” adlandırır. Berkli Universiteti, “Elekrtik mühəndisliyi və kompüter elmləri” kafedrası onun bir alim kimi yetişib formalaşmasında və inkişafında böyük rol oynayır. 1965-ci ildən isə dünyanın bütün aparıcı firmalarında onun nəzəriyyələri tətbiq olunur.

Lütfi Zadə Berkli Universitetində çalışdığı dövrlərdə onun diqqətini əsasən xətti sistemlər və avtomatlar problemi cəlb edir. Burada o, professor Çarlz Desoer ilə birlikdə xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası yanaşması probleminin araşdırılması ilə məşğul olur. Beləliklə, “xətti sistemlərin təhlili üçün vəziyyətlər fəzası” adlı müştərək elmi əsəri meydana gəlir. Nəticədə Lütfi Zadə dinamik idarəetmə sistemlərinin əsasını təşkil edən yeni yanaşma metodu təklif edir. Bu metodun mərkəzində Lütfi Zadənin vəziyyətlər fəzası nəzəriyyəsi dayanır. 1964-cü ildə dünya elmində yeni olan qeyri-səlis çoxluqlar nəzəriyyəsi yaranır. Lütfi Zadə bu nəzəriyyəsinin kəşf edəndən sonra onu Riçard Bellmana göstərmək qərarına gəlir. Onun Riçard Bellmanla birlikdə bir neçə elmi işi var idi və R.Bellmanın fikri Lütfi üçün önəmli idi. R.Bellmanın Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsinin fikri belə olur: “Zənnimcə, sizin bu işiniz elmdə inqilaba bərabərdir. Tədricən o, bütün elmlərə yeni baxış formalaşdırıb çox şeyi kökündən dəyişdirəcək. Hətta insan fenomeni barəsində də təsəvvür yaranacaq”.

Bellmanın bu fikirlərinə baxmayaraq Amerika mühiti Lütfi Zadənin bu elmi konsepsiyasını qəbul etmədi. Amma zaman keçdikcə həmin fikirlərin həqiqət olduğu təsdiqləndi və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin bəhrəsi olan beşinci və altıncı nəsil kompüterlərin meydana çıxması spektiv söz-söhbətlərə son qoydu. 1965-ci ildə Amerika Birləşmiş Ştatlarında yaşayan azərbaycanlı alim Lütfi Zadə tərəfindən tamamilə yeni, çox qiymətli qeyri-səlis məntiq nəzəriyyəsi yaradıldı. Bununla da dünya elm tarixində, kompüter sahəsində böyük kəşflər edildi. Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyəti nədən ibarətdir? Bu suala professor Lütfi Zadənin cavabı birmənalıdır: “...Qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyəti odur ki, mütləq heç nə yoxdur. Hər şey riyazi dillə desək, 0-1 şkalasında müəyyən həddə dəyişir”. Deməli, real dünyanın ümumi mənzərəsi 0 və vahid arasında olan onlarca, yüzlərlə çalarlardan ibarətdir. Bununla da dünyanın təsvir dili olan riyaziyyat ikiləşdi, nəticədə klassik riyaziyyat, qeyri-səlis riyaziyyat, qeyri-səlis hesab, qeyri-səlis cəbr, qeyri-səlis məntiq, qeyri-səlis topologiya və s. yarandı. Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsi riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnikasının inkişafında yeni bir dövr açdı. Həmin nəzəriyyə bütün dünyada elmə, texnika və texnologiyaya geniş nüfuz etdi. Paltaryuyan maşından tutmuş kosmik cihazlara, kibernetik tərcüməçidən tutmuş avtomat sürücüyə kimi yüzlərlə, minlərlə sistemdə, qurğuda bu nəzəriyyə öz tətbiqini tapdı.

Qeyri-səlis çoxluqlar nəzəriyyəsi yarandığı vaxtdan cəmi bir il keçəndən sonra birinci olaraq Yaponiya firmalarında, nəhəng sənaye şirkətlərində öz tətbiqini tapdı. Onlarca elmi-tədqiqat institutları yarandı, bu elm sahəsi Yaponiya universitetlərinin tədqiqat obyektinə çevrildi. Qeyri-səlis məntiq texnologiyası Yaponiyada tətbiq edilərək, onun böyük iqtisadi səmərəsi aşkarlandı və az müddət ərzində bütün aparıcı şirkətlər, firmalar tərəfindən dəstəkləndi. Yüksək iqtisadi səmərə gətirdiyinə görə 1989-cu ilin iyul ayında Lütfi Ə.Zadəyə Yaponiyanın elm sahəsində ən yüksək mükafatı - Honda mükafatı verildi.

Dünya elmində Zadə və Qassini kimi tanınan statistik qeyri-müəyyənlik şəraitində işləyən idarəetmə sistemlərində optimal süzgəclər məsələsinin həlli kimi bu elmi təklif mürəkkəb proqnozlaşdırma sistemlərinin qurulması üçün əsas götürülür. Zadənin bu təklifi məşhur Viner məsələsini xeyli genişləndirmişdir. Lütfi Zadənin dünya idarəetmə elminə verdiyi ən böyük töhfələrdən biri elmi ədəbiyyatda Z-çevirmə üsulu kimi tanınan (Zadə sözünün baş hərfi) diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin əsasını qoyan elmi nəzəriyyədir. Alimin elmi xidmətlərindən biri də müasir idarəetmə elminin əsasını təşkil edən vəziyyətlər fəzası, dinamik sistemlərin idarəolunma və müşahidəolunma nəzəriyyələrinin təklif olunmasıdır. Bu gün dünyanın bütün qabaqcıl universitetlərində idarəetmə elmi bu nəzəriyyələr əsasında öyrənilir, elmi-tətqiqat təşkilatları, xüsusilə ABŞ-ın milli kosmik tətqiqat mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələşdirir və tətbiq edir. Son illərdə Lütfi Zadənin nəhəng elmi fikirlərindən biri də Soft Computing nəzəriyyəsinin yaradılmasıdır. Bu, yeni texnologiyaların əsaslarının təşkilidir. Bu nəzəriyyə qeyri-səlis məntiq, süni neyron şəbəkələri, genetik alqoritmlər, Xaos nəzəriyyəsi və ehtimal qərarçıxarma paradiqmlərinin intellektual kombinasiyalarını özündə əks etdirir. Soft Computing nəzəriyyəsi bu gün dünya banklarında, iqtisadi və texniki sistemlərdə, incəsənətdə geniş tətbiq olunur. Lütfi Zadənin son dövr təklif etdiyi nəzəriyyə rəqəmlə yox, sözlə işləyən kompüter nəzəriyyəsidir. Bu cür maşınlarda informasiyanın qranulyasiyası kimi rəqəmlər, kodlar deyil, sözlər, cümlələr istifadə olunur. Bu cür kompüterlərin ən adekvat modeli təxmini məntiqi qərarçıxartma qabiliyyətinə malik olan və təəssürat əsasında informasiyanı işləyə bilən insan beynidir. Dünya şöhrətli alimin hələlik təklif etdiyi son nəzəriyyə təəssürat nəzəriyyəsidir. Qeyri-səlis məntiq qəbul edilmiş qeyri-müəyyən informasiyanın əsasında nəticə çıxarma üsullarını verirsə, təəssurat nəzəriyyəsi ətraf aləm haqqında tez, dolğun və dəqiq ölçmə aparmadan informasiya almaq üsullarını verir. Bu nəzəriyyənin məqsədi insanda olan oxşar süni təəssürat sistemi yaratmaq prinsipləri və üsulları verməkdir.

Lütfi Zadənin elmi ideyaları tükənib bitmir. Onun elmi nəzəriyyələri: müasir idarəetmə nəzəriyyəsinin təməlini qoymuş vəziyyətlər məkanı; diskret və rəqəmli idarəetmə sisteminin yaradılması üçün baza rolunu oynamış çevirmələr nəzəriyyəsi; insanın dünya haqqında, özü haqqında təsəvvüründə inqilabi dəyişikliklər əmələ gətirmiş qeyri-səlis məntiq və s. artıq gerçəkliyə çevrilmişdir. Bunlar müxtəlif sahələrdə yeni müasir tərzdə təqdim olunmuşlar və hələ də gələcəkdə tətbiq olunaraq sanki həlledilməz olan məsələləri həll edəcəkdir.



Onu da qeyd edək ki, Lütfi Zadənin nəzəriyyəsindən istifadə edilərək elmin bütün sahələri üçün ekspert sistemləri hazırlanır və müasir kompüterlərə tətbiq olunur. Bu zaman neyron şəbəkələr əsas götürülür, belə ki, insan beyninin obrazlarını dərk etməklə əməliyyat aparmaq prinsipi kompüterlərə də şamil edilir. Beşinci nəsil kompüterlərdə lazımi qaydada özünü yenidənqurma prinsipindən, öz-özünü proqnozlaşdırmadan və özü təşkil olunan davranışdan istifadə olunur. Bütün bunlar Lütfi Zadənin nəzəriyyəsi əsasında yaradılan texnika və texnologiyaların qeyri-müəyyən, qeyri-dəqiq obyektlərin öyrənilmsində daha çox tətbiq olunacağını göstərir.

Professor Lütfi Zadə sistem və optimal süzgəclər nəzəriyyəsi sahəsində də fundamental nəticələrə nail olmuşdur. Dünya alimləri onun əldə etdiyi elmi nəticələri müasir riyaziyyat və kibernetika sahəsində yeni bir hadisə kimi qiymətləndirmişlər.

Lütfi Zadə dünyanın 25 ölkəsinin nüfuzlu universitetlərinin fəxri doktoru adına layiq görülmüşdür. Həmçinin ABŞ Milli Mühəndislik Akademiyasının üzvü, Koreya Elm və Texnoloji Akademiyasının, Bolqarıstan Elmlər Akademiyasının, Polşa Elmlər Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri akademiki seçilmişdir.

O, 200-dən cox elmi məqalənin tək müəllifi, 70-dən cox elmi jurnalın redaksiya heyətinin üzvü olmuşdur. Elmi tədqiqatları bir neçə nüfuzlu şirkət və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Nazirliyi tərəfindən dəstəklənmişdir.

İllərin ayrılığından sonra Lütfi Zadənin doğma Bakıya ilk səfəri 1965-ci ildə Qara dənizdə Odessa-Batumi istiqamətində üzən “Admiral Naximov” teploxodunda avtomatik idarəetmə problemlerinə həsr olunmuş beynəlxalq elmi konfransdan sonra olmuşdur.

43 ildən sonra professor Lütfi Zadə “BakuTel” beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisində iştirak etmək üçün 2008-ci ilin noyabr ayının 8-10-da Bakıya ikinci dəfə səfər etmişdir. Səfər zamanı Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edən dünya şöhrətli alim Prezident İlham Əliyev tərəfindən qəbul edilmişdir. Lütfi Ə.Zadə Bakıya səfərindən və dövlət başçısı ilə görüşündən məmnunluğunu ifadə etmişdir.

2011-ci ildə “Dostluq” ordeni ilə təltif edilən Lütfi Zadə Prezident İlham Əliyevə minnətdarlıq məktubu göndərmişdir.

Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası Lütfi Ə.Zadənin anadan olmasının 95 illiyi münasibəti ilə onu “Nizami Gəncəvi” qızıl medalı ilə təltif etmişdir. Təqdimetmə mərasimi 2016-cı ilin 7 sentyabrında Berklidə “Elekrtik mühəndisliyi və kompüter elmləri” fakültəsi və Azərbaycan Respublikasının Los-Ancelesdə yerləşən baş konsulluğunun birgə təşkilatçılığı ilə həyata keçirilmişdir.

Elə insanlar var ki, onlara uzun illər yaşamaq nəsib olur. Ancaq həmin ömrün çərçivəsində gördükləri işləri yazmaq üçün bir-iki vərəq kifayət edir. Lütfi Zadənin həyatı isə elə zəngindir ki, danışanda heyrətlənməyə bilmirsən. İstər-istəməz düşünürsən ki, bir insan ömrünə bu qədər çox və əzəmətli işləri sığışdırmaq üçün Lütfi Zadə olmaq gərəkdir.

2015-2016-cı illərdə onun səhhətində yaranan problemlər insanları narahat edirdi. Ancaq ömrünün yüzünə az qalmış alimi nə yaşının çoxluğu, nə də sağlamlığını itirməsi ruhdan salmırdı. O, güclü iradəyə malik, qətiyyətli insan idi. O, hər gün elmi işlə məşgul olur, ona gələn e-mail-ləri cavablandırmağa çalışırdı. Amma nə qədər kədərli olsa da, özünü də, bizi də əbədi ayrılığına hazırlayırdı.

2017-ci il sentyabr ayının 6-da o, gözünü əbədi yumdu. Alim Azərbaycanda dəfn edilməsini vəsiyyət etmişdi. 2017-ci il sentyabr ayının 29-da azırbaycanlı alim professor Lütfi Zadə 1-ci Fəxri xiyabanda dəfn edilmişdir.

Lütfi Zadə dünya elmində o qədər böyük işlərə başladı ki, onları sona çatdırmağa şübhəsiz bir insan ömrü yetməzdi. O, böyük məktəb yaratdı, elmdə geniş bir yol açdı. Özü də əmin idi ki, davamçıları onun arzularını həyata keçirmək üçün əllərindən gələni əsirgəməyəcəklər. Son nəfəsində elmi fəaliyyətinə həsr olunmuş Soft Computing üzrə Ümumdünya konfransının iki ildənbir olmaqla davamlı təşkil edilməsini və yarıda qalmış bir sıra elmi layihələrinin sona çatdırılmasını xahiş etmişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 25-də görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda elm və texnologiyaların inkişafına misilsiz töhfələr vermiş məşhur alimin ildönümünün qeyd olunması vurğulanıb. Sənəddə dünya şöhrətli alimin elmi irsi, nəzəriyyələri, kəşfləri yüksək dəyərləndirilib. Sərəncamda deyilir: “Lütfi Zadə dünya miqyasında əsərlərinə ən çox istinad olunan alimlərdəndir. Onun yaratdığı elmi məktəb və laboratoriyalar bir sıra ölkələrdə yarım əsrdən artıqdır ki, uğurla fəaliyyət göstərməkdədir. Azərbaycanlı olduğunu fəxrlə bildirən və ürəyi daim doğma Vətəni ilə bir döyünən Lütfi Zadə elm və texnologiyaların inkişafında, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatlarından olan “Dostluq” ordeninə layiq görülüb”.

Əsl insan, bənzərsiz alim ömrü yaşayan Lütfi Zadənin son mənzili Azərbaycan oldu. Sevənlərinin qəlbində, onun elmi istiqaməti, nəzəriyyələri, tətbiq sahələri ilə işləyən və gələcəkdə işləyəcək alimlərin fəaliyyətində Lütfi Zadə ömrü davam edəcək.

Lütfi Zadə aramızda olmasa da, onun QEYRİ-SƏLİS MƏNTİQ-i daim yaşayacaq.

***Şahnaz ŞAHBAZOVA,***
***AzTU-nun professoru,***
***texnika elmləri doktoru,***
***Lütfi Zadə adına***
***Beynəlxalq Elmlər***
***Akademiyasının***
***vitse-prezidenti***

# Goranboyda Vətən müharibəsi zamanı dağılmış evlərin bərpasına başlanılmışdır

2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini ağır artilleriyadan atəşə tutması nəticəsində Goranboy rayonunda da mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə və sahibkarlıq subyektlərinə xeyli ziyan dəymişdir.



Dəymiş ziyanın siyahıya alınması üçün İqtisadiyyat Nazirliyi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Fövqəladə Hallar Nazirliyi, Baş Prokurorluq, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi və rayon icra hakimiyyətinin iştirakı ilə müvafiq komissiya yaradılmışdır. Komissiya Goranboy rayonunun cəbhəyanı ərazilərində yerləşən Aşağı Ağcakənd, Meşəli, Qaraçinar, Yenikənd, Zeyvə, Hacallı, Səfikürd, Şahməmmədli, Qarasüleymanlı, Qızlhacılı,Tapqaraqoyunlu və Tap yaşayış məntəqələrindəki vətəndaşların şəxsi əmlaklarına və evlərinə atılan mərmi partlayışları nəticəsində dəymiş ziyanı müəyyənləşdirmişdir.

Komissiya tərəfindən Goranboy rayonu üzrə 471 obyektə baxış keçirilmiş, bundan 371 nəfərə ziyan dəyməsi müəyyən edilərək aktlar tərtib edilmişdir. Həmin aktlar əsasında sözügedən komissiya tərəfindən qiymətləndirmə aparılmış, “Kapital Bank”ın Goranboy rayon filialında həmin şəxslərin hesab nömrələrinə komissiyanın müəyyən etdiyi məbləğdə pul köçürmələri təmin edilmişdir. Hazırda vətəndaşlar dağılmış və ya ziyan dəymiş evlərinin bərpasına başlamışlar.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Şəhid ailələri qayğı ilə əhatə olunub

Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət göstərilir. Bu gün onlar hərtərəfli qayğı ilə əhatə olunublar.





Sumqayıt şəhərində də şəhid ailələri və qazilər daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə tədbirlər şəhər icra hakimiyyətinin təşəbbüsü, Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilir. Növbəti belə tədbir Vətən müharibəsi şəhidləri Səmid Xoşbəxt oğlu Əliyev, Müşviq Abbas oğlu Bəktiyev və Anar Bəhruz oğlu Heydərovun ailələrinin ziyarət edilməsi olmuşdur.

Cümə məscidinin axundu Hacı Sərdarov və idman ictimaiyyəti nümayəndələrinin də iştirak etdikləri görüşlərdə bildirilmişdir ki, 44 günlük Vətən müharibəsində zəfər tariximizə adları qızıl hərflərlə yazılmış şəhidlərimiz xalqımızın qürur mənbəyi olaraq hər zaman anılacaq və heç bir zaman unudulmayacaq.

Qeyd edək ki, Səmid Əliyev Füzuli, Müşviq Bəktiyev Xocavənd, Anar Heydərov isə Suqovuşan istiqamətlərində gedən döyüşlərdə şəhid olmuşlar. Onlar “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişlər.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Vətən müharibəsində tovuzlu gənclər də nümunə göstərmişlər

Tovuzda Gənclər Günü münasibətilə videoformatda tədbir keçirilmişdir. İştirakçılar əvvəlcə torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.



Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov demişdir ki, əsası Ulu Öndər tərəfindən qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən çox böyük uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə mübariz, vətənpərvər, intellektual bacarığı ilə seçilən yeni nəsil yetişmişdir: “Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına sanballı təkan vermişdir. Məhz onun rəhbərliyi ilə həyata keçirilən davamlı tədbirlər, uğurla icra olunan dövlət proqramları gənclərimizin özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması, onlarda Vətənə məhəbbət, dövlətçiliyimizə sədaqət hisslərinin aşılanması öncə 2020-ci ilin iyul ayında düşmənin dövlət sərhədinin Tovuz rayonu istiqamətində yaratdığı təxribatın qarşısının alınmasında, bundan sonra isə 44 günlük Vətən müharibəsində özünü tam sübut etdi. Rəşadətli Azərbaycan Ordusunun sıralarında hərbi xidmətə cəlb olunmuş gənclərimiz Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əzəli torpaqlarımızın işğaldan azad olunması və tarixi qələbəmizin əldə edilməsində cəsurluq, igidlik və yenilməzlik nümunəsi göstərdilər. Neçə-neçə qəhrəman əsgərimiz vətənin azadlığı uğrunda həyatından keçərək şəhidlik zirvəsinə ucaldı. Neçə-neçə igidimiz sağlamlığını qismən itirdi. Şəhidlərimizin hər birinin adı Azərbaycanın əldə etdiyi bu Zəfər tarixinə əbədi olaraq yazılmışdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən döyüşlərdə şanlı Azərbaycan Ordusunun sıralarında tovuzlu gənclər də döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirmişlər. Onlardan 66 nəfəri şəhid olmuş, 200 nəfərdən çoxu yaralanmışdır.

Vətən qarşısında xidmətlərinə görə yüksək dövlət təltiflərinə layiq görülən hərbi qulluqçular sırasında tovuzlu gənclər də çoxdur. Bu gün qürur hissi ilə deyə bilərik ki, kiçik gizir Əhmədov Yaşar Mirağa oğlu və kiçik gizir Cabbarov Orxan Rövşən oğlu (ölümündən sonra) “Vətən Müharibəsi Qəhrəmanı” adına, kapitan Tağıyev Cavid Aydın oğlu “Zəfər” ordeninə, polkovnik-leytenant Tağıyev Samir Nəsrəddin oğlu, leytenant Mehdiyev Rəşad Fəxrəddin oğlu və baş gizir Yusifov Mehman Musa oğlu (ölümündən sonra) “Qarabağ” ordeninə layiq görülmüşlər. Bundan başqa, döyüş əməliyyatlarında fərqlənən yüzlərlə tovuzlu gənc müxtəlif medallarla təltif olunmuşlar.

Tədbirin sonunda gənclərin bir qrupu rayon icra hakimiyyətinin fəxri fərmanları ilə təltif olunmuş və onlara qiymətli hədiyyələr verilmişdir.

***S.ƏLİYEV,***
***“Azərbaycan”***

# DTX: Səlim Müslümov cinayət məsuliyyətinə cəlb olunub

Müslümov Səlim Yanvar oğlunun Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, toplanılmış materiallar əsasında başlanılmış cinayət işi üzrə Səlim Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib, dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb olunaraq alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin Səlim Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub. Eyni zamanda Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyənləşdirilib.

Səlim Müslümov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Keçmiş hərbi xunta Paşinyana qarşı müxalifətlə birləşir

Ermənistanda baş verən son proseslər siyasi qarşıdurmanın yeni mərhələsinin başladığını göstərir. Müxalif qüvvələrin Paşinyan iqtidarına qarşı fəaliyyəti genişlənir və bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd edir. Bu məqsədlə keçmiş hərbi xuntanın əsas təmsilçiləri, Ermənistanın ikinci və üçüncü prezidentləri Robert Koçaryan və Serj Sarkisyan bu günlərdə müxalifət partiyalarının liderləri ilə görüşüblər.

Görüş müxalifətdən baş nazir postuna vahid namizəd Vazgen Manukyanın ofisində keçirilib. Görüşdə Manukyanla yanaşı, “Vətən” partiyasının sədri Artur Vanetsyan, “Çiçəklənən Ermənistan”ın lideri Qaqik Sarukyan və “Daşnaksütyun”un ali orqanının nümayəndəsi İşxan Saqatelyan da iştirak ediblər. Əsas müzakirə mövzusu Paşinyanın istefasına nail olmaq məsələsi olub.

Xatırladaq ki, Qarabağla bağlı üçtərəfli bəyanat imzalandıqdan sonra Ermənistanda baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətin istefası tələbi ilə müxalifət partiyaları tərəfindən etiraz aksiyaları başlayıb. Lakin Paşinyanı istefaya məcbur etmək mümkün olmayıb. Bununla belə, əvvəllər Paşinyanın növbədənkənar seçkilərin keçirilməsi barədə təşəbbüsünə qarşı çıxan müxalif düşərgə tədricən növbədənkənar seçkiyə meyl edir, lakin seçkidə Paşinyanın iştirakına qarşı çıxır.

Erkən seçkilərin keçirilməsi xüsusən Sarkisyan-Koçaryan koalisiyasının maraq dairəsindədir. Belə ki, artıq Koçaryan keçiriləcəyi təqdirdə erkən seçkidə iştirak edəcəyini bildirib. O, müsahibəsində seçkilərdə qalib gələcəyinə əminliyini də ifadə edib. Bununla bərabər, Koçaryan hakimiyyəti təhdid etməyi də unutmayıb. Bildirib ki, müxalifət siyasi mübarizə yolu seçib, amma bir müddət sonra proseslər gedişatı dəyişdirə bilər: “Ermənistanda etiraz fəallığı bu yaz arta bilər. Hakimiyyət müxalifətin əvvəldən siyasi mübarizə metodlarını seçdiyinə sevinməlidir. Siyasi proseslərə ümid ölsə, bütün proses başqa bir kanala çevriləcək. İkinci inqilab ölkə üçün problemli olacaq. Ancaq hakimiyyət dəyişikliyinə gedən siyasi yol ümidi tükənsə, yazda insanlar yenidən küçələrə axışacaq və etiraz dalğası əvvəlkindən daha güclü olacaq”.

Sabiq dövlət başçısının nöqteyi-nəzərindən indiki vəziyyətdə seçkiləri təşkil etmək olduqca təhlükəlidir. Buna baxmayaraq, səlahiyyətlilər bunu anlamırsa və həyata keçirilməsində israr edirsə, müxalifət yenidən diktatorluğun qarşısını almaq üçün seçkidə iştirak etməlidir.

Ümumiyyətlə, əvvəlki illərin təcrübəsini nəzərə alaraq keçmiş hərbi xunta Qarabağ ermənilərinin dəstəyinin də onlar üçün həyati əhəmiyyət kəsb etdiyini yaxşı başa düşür. Bu mənada onların hərbi cinayətkarlar olan keçmiş hərbçilərlə əlaqələri genişləndirməsi, intensivləşdirməsi heç də təsadüfi xarakter daşımır. Əsas niyyət həm də Yerevanda iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub hakimiyyəti qəsb etməkdir. Paşinyan isə onlara sərt formada müqavimət göstərəcək ki, bu da Ermənistanda qarşıdurmanın dərinləşməsi deməkdir.

Maraqlıdır ki, artıq kilsə də siyasi proseslərdə müxalifətin yanında yer alır. Bunu bütün ermənilərin katolikosu II Qareginin açıqlamaları da təsdiq edir. Onun sözlərinə görə, Ermənistan heç vaxt belə ağır duruma düşməyib. Paşinyanın istefası tələbinin qüvvədə olduğunu vurğulayan katolikos bildirib ki, onların məsələyə yanaşmasında dəyişiklik yoxdur.

Ermənistan müxalifəti erkən seçkilərin Paşinyanın iştirakı olmadan keçirilməsini istəyir. Parlamentin vitse-spikeri Alen Simonyan isə bunu mümkünsüz hesab edir: “Erkən seçkilərin keçirilməsini əvvəlcədən hakimiyyət bəyan edib. Lakin müxalifət bundan imtina edir. Hakim elita seçkinin keçirilməsinə tərəfdardırsa, müxalifət ondan imtina edirsə, bu nonsensdir”.

Bundan əlavə, erməni vitse-spikeri mövcud vəziyyətdə müxalifətin özünü əsas problem adlandırıb. “Çünki o, xalqı təmsil etmir, hansısa keçmiş məmurların maraqlarını təmsil edir, deməli, o yoxdur, bir neçə iri oyunçu var. Xalqın nə iqtidarda, nə də müxalifətdə elə də çox seçimi yoxdur. Bundan əlavə, mövcud hökuməti sevməyən vətəndaşlar hələ də “ən azı köhnələr deyil” məntiqi ilə ona üstünlük verir” deyə o bildirib.

Simonyan qeyd edib ki, istər hakimiyyətin, istərsə də müxalifətin sosial sorğularının hamısı Ermənistan əhalisinin 72 faizinin hakimiyyəti dəstəklədiyini göstərir. Onun sözlərinə görə, hakim partiya erkən seçkinin keçirilməsini ilk növbədə əhali üçün təklif edir ki, insanlar bundan sonra necə yaşamağa hazırlaşdıqlarını və nəyi düzgün hesab etdiklərini başa düşsünlər. Hakim komandanın növbədənkənar seçkilər keçirmək istəməsi, amma müxalifətin Paşinyanın seçkidə iştirakını istəməməsi paradoksal vəziyyət yaradıb. “Müxalifət razı deyilsə, deməli, bu seçkidə məğlub olacağını əvvəlcədən bilir. O zaman bu seçkilərin göstərdiyim tezisə görə nə qədər lazım olacağına iqtidar partiyası qərar verəcək” deyə vitse-spiker bildirib.

Beləliklə, Ermənistanda siyasi ziddiyyətlər davam edir. Hakimiyyətlə müxalifət arasında gərginliyin artması, xüsusən seçkilərlə bağlı mübahisələr, həmçinin keçmiş hərbi xuntanın Paşinyana qarşı müxalifətlə birləşməsi göstərir ki, perspektivdə ölkəni daha ağır günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***


## Nizami Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
**LOT 1 - Nəqliyyat və xüsusi texnikaların satın alınması.**
Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı (manat)**
**LOT 1 - 300 (üç yüz) manat**
**İştirak haqqının ödənilməsi yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirilə bilər.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Hesab: AZ03AIIB33010019441300286113**
**VÖEN: 1600127621**
**Bank: “Kapital Bank” ASC 1 saylı Nizami filialı**
**Kodu: 200134**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *malgöndərənin (podratçının) Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında məlumat;*
- *malgöndərənin (podratçının) müvafiq sahə üzrə fəaliyyətinə icazə verilən lisenziyalar və Əsas şərtlər toplusuna uyğun olaraq ixtisas göstəricilərini müəyyən edən sənədlər.*

Tender təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Malgöndərənlərin (podratçılar) səlahiyyətli nümayəndələri Portala daxil olmaqla iştirak edə bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **24.02.2021-ci il saat 16:15-ə** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **04.03.2021-ci il saat 17:45-ə** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05.03.2021-ci il saat 16:15-də** Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Beyləqan Meliorasiya İdarəsi
### *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir.
LOT 1. Cari və əsaslı təmir işlərində istifadə olunan mal-materialın, maşın-mexanizmlərin və nəqliyyat vasitələrinin ehtiyat hissələrinin satın alınması.
LOT 2. Kollektor və drenaj şəbəkəsinin lildən təmizlənməsinin satın alınması.
Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalına elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı LOT üzrə 100 (bir yüz) manat**
**Beyləqan Meliorasiya İdarəsi**
**Hesab: AZ87CTRE00000000000002354103**
**VÖEN: 3900394001**
**Adı: DXA**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. Bik : CTREAZ 22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (Zərflərin açıldığı tarixdən azı 60 (altımış) bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması haqqında arayış;*
- *Əsas şərtlər toplusunda göstərilmiş müvafiq sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25 fevral 2021-ci il saat 15:00-a** qədər və tender təklifi və bank təminatı sənədlərini **05 mart 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **09 mart 2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) 21-25 fevral 2021-ci il tarixlərdə keçiriləcək “GulFood 2021” (Dubay, BƏƏ) sərgisində nümayiş olunacaq məhsulların təyinatı üzrə təslim edilməsinin beynəlxalq yük daşınması (məntəqədən məntəqəyə) xidmətinin satın alınması məqsədilə təkliflər sorğusu həyata keçirir

Təkliflər sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 08 fevral 2021-ci il saat 18:00-dək Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) Bakı şəhəri, Neftçilər prospekti, 32 ünvanında yerləşən ofisinə təqdim edilməlidir.
Əlaqələndirici şəxs - Sənan Davudov (telefon: 012-598-01-47).
Zərflər 09 fevral 2021-ci il saat 10:00-da həmin ünvanda açılacaqdır. Maraqlananlar müvafiq məlumatları Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) Bakı şəhəri, Neftçilər prospekti, 32 ünvanında yerləşən ofisinə yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## “Azərsu” ASC-nin daxili vəsaiti hesabına içməli su təchizat sistemlərin və tullantı su təmizləyici qurğuların ehtiyat hissələri olan qayışların və filtr katriclərin satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, “Azərsu” ASC-nin Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288) müraciət edə bilərlər.
Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 10 fevral 2021-ci il saat 15:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.
Kotirovka təklifləri “Azərsu” ASC-nin Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanında 11 fevral 2021-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ
### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**
LOT 1 - Sosial sığorta şəhadətnamələrinin çapı zamanı istifadə edilən kartların satın alınması
Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50,00 (əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və ya 2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 04.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Dövlət Statistika Komitəsindən alınmalıdır. (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25.02.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05.03.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **09.03.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları, dosent

**SÜLEYMAN ŞİRİNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5180
Sifariş 226
Qiyməti 40 qəpik